

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Böyük ziyalı, gözəl ana, vəfalı ömür-gün yoldaşı



4

SƏS

№ 057 (6740)

5 aprel 2023-cü il.
Qiymәti 60 qәpik

## Türkiyənin ilk yerli elektromobili "Togg" Azərbaycan Prezidenti İlham Əliyevə təqdim olunub




3

# Geosiyasi oyunlar fonunda dünya üçün GÖZLƏNİLƏN "ZƏRBƏ"



5

## USAİD-in Azərbaycandakı fəaliyyəti: irqçilik və qərəz!




6

## Ətraf mühitin sağlamlaşdırılması naminə



10

## Hüsnxətsiz gələcək



13



9

## Ət festivalı

## Bu futbolçu hər il PSJ-dən 60 milyon avro bonus qazanır




16

# Dəyəri 6 milyard dollar olan layihə



## Prezident İlham Əliyev "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib

**Azərbaycan Prezidenti İlham Əliyev aprelin 4-də Bayıl tikinti-quraşdırma sahəsində "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib. BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz və "Azəri-Mərkəzi-Şərqi" layihəsinin Baş direktoru Nil Filips dövlətimizin başçısına layihə üzrə görülən işlər barədə məlumat veriblər.**

Bildirilib ki, "Azəri-Mərkəzi-Şərqi" layihəsi üzrə yekun investisiya qərarı 2017-ci ildə "Azəri-Çıraq-Günəşli" (AÇG) üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) 2049-cu ilə qədər uzadılmasından sonra AÇG tərəfdaşlarının ilk böyük investisiya qərarıdır. Dəyəri 6 milyard dollar olan layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neftin hasil olunacağı proqnozlaşdırılır.









Bu layihə çərçivəsində dənizdə suyun dərinliyinin təxminən 140 metr olan sahəsində - "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında 48 şaxtadan ibarət yeni hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Layihəyə, həmçinin yataqdaxili yeni sualtı boru kəmərləri də daxildir. Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud AÇG "Faza 2" sualtı ixrac kəmərlərinə qoşulacaq.

Bundan əlavə, laya vurulan suları "Mərkəzi Azəri" kompressor və suvurma platformasından "Azəri-Mərkəzi-Şərqi" qurğularına nəql etmək məqsədilə "Azəri-Mərkəzi-Şərqi" və "Şərqi Azəri" platformaları arasında suvurma boru xətti olacaq.

Məlumat verilib ki, "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modullarına neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. Modulların layihələndirilmiş çəkisi 19 min 600 tondur.

Üst modullar Bayılda yerləşən tikinti-quraşdırma sahəsində "Azfen" şirkəti tərəfindən yerli infrastruktur və resurslardan istifadə olunmaqla inşa edilib. Hazırda tikinti işlərinin və istismar sınaqlarının son mərhələsi həyata keçirilir və bu sınaqların artıq 95 faizi tamamlanıb.

Üst modulların tikinti işlərinin kulminasiya nöqtəsi Xəzərdə BP-nin ilk dəfə icra etdiyi "qaldırma və sürüşdürmə" əməliyyatı olub. Bu əməliyyat zamanı iki nəhəng qazma modulu təhlükəsiz və səmərəli şəkildə lazımi yüksəkliyə qaldırılaraq relslərlə sürüşdürmə üsulu ilə "Azəri-Mərkəzi-Şərqi" platformasının üst tikililər blokunun üzərinə yerləşdirilib.

Layihənin pik dövründə üst modulların tikintisi işlərinə 4400 nəfərədək işçi cəlb edilib və onların 90 faizindən çoxu Azərbaycan vətəndaşı olub. Sonra görülən işlərlə bağlı videoçarx nümayiş olunub. Platforma Səngəçal terminalından, yəni, uzaq məsafədən idarə ediləcək. İdarəetmə mexanizminə avtomatlaşdırılmış innovativ sistem daxil edilib.

Prezident İlham Əliyev və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modulları qurğusunun dənizə rəmzi yola salınmasını bildirən düyməni basdılar. Bildirildi ki, tikinti işlərinin və istismar sınaqlarının 2023-cü ilin ikinci rübündə tamamlanacağı gözlənilir. Həmin vaxt qurğu STB-1 daşıma barjına yüklənəcək, dənizə göndəriləcək və AÇG yatağı sahəsindəki dayaq blokunun üzərinə quraşdırılacaq. Tikinti işlərinin və istismar sınaqlarının dənizdə həyata keçirilən hissəsi tamamlandıqdan sonra "Azəri-Mərkəzi-Şərqi" platformasından ilk neftin 2024-cü ilin əvvəllərində əldə olunması üçün birinci quyunun qazılmasına başlanacaq.

Xatırladaq ki, "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq bloku ötən il dekabrın 13-də Prezident İlham Əliyevin iştirakı ilə dənizə yola salınıb. Bütün istismar sınaqları bitdikdən sonra dayaq bloku dənizə yola salınıb və suyun 137 metr dərinliyində öz daimi yerinə quraşdırılaraq üst modulları qəbul etməyə artıq hazırdır.

## Rəsmi xronika

İnam İmdad oğlu Kərimov Azərbaycanın kənd təsərrüfatı naziri vəzifəsindən azad edilib. SİA xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

***

Dövlət başçısının digər Sərəncamı ilə Azərbaycanın kənd təsərrüfatı naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası kənd təsərrüfatı nazirinin müavini Sarvan Elxan oğlu Cəfərova həvalə edilib.

***

İnam İmdad oğlu Kərimov Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri təyin edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# Türkiyənin ilk yerli elektromobili "Togg" Azərbaycan Prezidenti İlham Əliyevə təqdim olunub





Aprelin 4-də Türkiyənin ilk yerli elektromobili "Togg" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub. Dövlətimizin başçısı əvvəlcə Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank, "Togg" şirkətinin baş icraçı direktoru və idarə heyətinin üzvləri ilə görüşdü.

Prezident İlham Əliyev: Bir daha salaməleyküm.

Mustafa Varank: Hörmətli cənab Prezidentim, xoş gəldiniz.

Prezident İlham Əliyev: Xoş gördük.

Türkiyə Palatalar və Birjalar Birliyinin rəhbəri Rifat Hisarcıklıoğlu: Salaməleyküm, cənab Prezidentim, necəsiniz?

Prezident İlham Əliyev: Salam, xoş gördük. Sizi gözləyirdik.

Rifat Hisarcıklıoğlu: Allah razı olsun. Cənab Prezidentim, gödəkcəni geyinərsinizmi?

Prezident İlham Əliyev: Təbii ki, geyinərəm.

Rifat Hisarcıklıoğlu: Ölçünü də tam tutdurmuşuq. Cənab Prezidentim, buranı ilk dəfə görürəm. Mənzərə möhtəşəmdir.

Prezident İlham Əliyev: Bura Bakının ən gözəl, ən mənzərəli yeridir. Ona görə mən bu yeri seçdim.

Xatirə şəkilləri çəkdirildi. Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank "Togg" elektromobilinin T10X modelinin açarını dövlətimizin başçısına təqdim etdi.

Mustafa Varank: Hörmətli cənab Prezidentim, hörmətli Prezidentimizin salamlarını gətirdik.

Prezident İlham Əliyev: Əleykümsalam.

Mustafa Varank: Türkiyədən ikinci avtomobili Sizə təqdim etmiş oluruq. Bütün türk xalqı ikinci avtomobilin Azərbaycana göndərilməsindən çox məmnundur. Xeyirli-uğurlu olsun. İnşallah, gözəl günlərdə istifadə edərsiniz.



Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm. İlk növbədə, Əziz Qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğana təşəkkürümü bildirirəm ki, ikinci avtomobilin mənə verilməsini tövsiyə edib. Sizə də təşəkkür edirəm, ilk növbədə, bu gözəl avtomobili istehsal etdiyiniz üçün. Bu, Türkiyənin, Türkiyə sənayesinin növbəti böyük bir uğurudur. Bu hədiyyəni mənə təqdim etdiyiniz üçün xüsusi təşəkkürümü bildirmək istəyirəm.

Mustafa Varank: Xeyirli olsun.

Sonra Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim olunub. Dövlətimizin başçısı "Togg" elektromobilini idarə edib.

Qeyd edək ki, 2022-ci il oktyabrın 29-da təqdimatı keçirilən Türkiyənin milli istehsalı olan "Togg" elektromobilinin ilk sifarişçilərindən biri də dövlətimizin başçısı olub. Ötən il noyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə telefon söhbəti zamanı dövlətimizin başçısı Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası "Togg"un kütləvi istehsala başlanılması münasibətilə təbriklərini çatdırıb və bunu Türkiyə sənayesinin yeni uğuru kimi dəyərləndirib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata açıqlamasında həmin telefon danışığı zamanı Azərbaycan Prezidenti İlham Əliyevin iki ədəd "Togg" elektromobili almaq üçün sifariş verdiyini bildirmişdi.

İlk avtomobil ötən gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və xanımı Əminə Ərdoğana təqdim olunub.



# Dostluq və qardaşlıq münasibətləri yeni mərhələdə!

## Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin sənaye və texnologiya nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Türkiyə Respublikasının sənaye və texnologiya naziri Mustafa Varankı qəbul edib. Türkiyənin ilk yerli elektromobili "Togg"un istehsalı ilə bağlı təbriklərini çatdıran dövlətimizin başçısı onun Bakıya gətirilməsindən məmnunluğunu bildirib, bununla bağlı Türkiyə dövlətinin başçısına minnətdarlığını ifadə edib.**

Azərbaycan Prezidenti bu tipli avtomobilin ikincisinin ölkəmizdə olmasını dostluq və qardaşlıq münasibətlərimizin təzahürü kimi dəyərləndirib.

Dünən Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarla görüşünü xatırladan Prezident İlham Əliyev qardaş ölkədə son illərdə həm müdafiə sənayesi, həm də mülki sənaye sahələrində yüksək texnoloji məhsulların istehsal olunduğunu deyib, bunun Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə xalqının zəkası, istedadı və əməyi nəticəsində ərsəyə gəldiyini vurğulayıb və "Togg"un istehsalına başlanılmasının da bu baxımdan yaxşı nümunə olduğunu bildirib.

Dövlətimizin başçısı əldə olunan bütün bu uğurlar münasibətilə Türkiyə Prezidentinə, dost və qardaş Türkiyə xalqına təbriklərini çatdırıb. Mustafa Varank "Togg"un ikinci avtomobilinin Azərbaycanda olmasından Türkiyə Prezidenti və xalqının qürur hissi keçirdiyini bildirib. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən sənaye və texnologiya sahələrində inkişafından məmnunluq ifadə olunub, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Böyük ziyalı, gözəl ana, vəfalı ömür-gün yoldaşı

## Ulu Öndər Heydər Əliyev: "O, yaxşı ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri cəm halda özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr verən həkim-oftalmoloq idi"





O gözəl ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq kimi tanıyırdı. İlin gözəl fəslində, 1923-cü il aprelin 28-də dünyaya gələn, 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşan, gözəl insan, qayğıkeş həkim Zərifə xanım Əliyeva ömür salnaməsinə gözəl əməllərdən başqa heç nə yazılmayan şəfqətli əllər sahibi olmaqla kamil, xeyirxah insan kimi də hamının hörmətini qazananlardan idi. Zərifə xanım Əliyeva XX əsr Azərbaycan tarixinin görkəmli simalarından olaraq 1923-cü il aprelin 28-də qədim Naxçıvanın Şahtaxtı kəndində görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub.

Son dərəcə xeyirxah insan olan Zərifə xanım Əliyeva yaşamaqdan, işləməkdən xüsusi zövq alırdı, nikbin insan idi, ətrafında xeyirxahlıq və etimad abı-havası yaratmaq üçün çox çalışırdı. Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım Əliyeva həmin dövrdə Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin qarşısının alınması yolunda daha böyük fəaliyyət göstərib. Belə ki, Zərifə xanım Əliyeva traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edib, konkret müalicə təcrübəsindən başqa Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedib, həkim-oftalmoloqlara məruzələr oxuyub, əhali arasında çoxlu söhbətlər aparıb. Amma ağır xəstəliklə mübarizədə bu kifayət etməyib. Respublikada regional əhəmiyyət kəsb edən göz xəstəliklərinə, o cümlədən, gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, bu xəstəliklərin effektli müalicə üsullarını və profilaktika tədbirlərini işləyib hazırlamaq tələb olunub.

Həkim olmaq arzusu onu Moskva şəhərinə aparıb və Zərifə xanım Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda iki illik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına yiyələnib. O, ixtisaslaşdırma kursunu müvəffəqiyyətlə başa çatdırdıqdan sonra Vətənə qayıdıb, 1949-cu ildən başlayaraq, Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayıb. 1950-ci ildə isə aspiranturaya daxil olub, praktik əməli həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlarını da davam etdirib. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım elmi fəaliyyətinin ilk mərhələsini traxoma infeksion xəstəliyinin müalicəsinə həsr edib.

### BELƏLİKLƏ, ZƏRİFƏ XANIMIN İLK ELMİ ARAŞDIRMALARININ MÖVZUSUNU HƏYAT ÖZÜ MÜƏYYƏNLƏŞDİRİB

Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilib. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edib. Zərifə xanım tədqiqat işini traxomanın müalicəsində və onun ağırlaşdığı hallarda daha təsirli vasitələrin öyrənilməsinə, o dövr üçün yeni olan antibiotikdən - sintomisindən istifadə olunmasına həsr edib. Bu dövrdə Zərifə xanım yalnız çalışdığı institutda fəaliyyət göstərməklə kifayətlənməyib, o, respublikanın şəhər və rayonlarını bir-bir gəzərək, xəstəliyin yaranma səbəblərini araşdırıb və xəstəlik ocaqlarında kompleks şəkildə müalicə-profilaktik tədbirləri həyata keçirib. Böyük alim uşaq evlərində tərbiyə alan kimsəsiz uşaqlar arasında yayılan traxoma xəstəliyinin qarşısını almaqda xüsusi xidmət göstərib. Uğurlu tədqiqatların nəticələri Zərifə Əliyevanın 1960-cı ildə müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edib. 1960-cı ildən 1967-ci ilədək Zərifə xanım Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışıb. 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası ona "Oftalmologiya" ixtisası üzrə böyük elmi işçi adı verib. 1967-ci ildə Zərifə Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunub. Həmin dövrdə Zərifə xanım həkimlik fəaliyyəti ilə məşğul olaraq, bir çox cərrahiyə əməliyyatları aparıb, xəstələrə məsləhətlər verib, üstəlik onun fəaliyyəti yalnız öz klinikasına qapanıb qalmayıb, bütün oftalmologiya təşkilatlarını və şöbələrini əhatə edib. Bununla yanaşı o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparıb. 1968-ci ildən başlayaraq Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başlayıb. Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyanın əsasını təşkil edib. O, "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində - H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə edib. Zərifə Əliyevanın dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini alıb, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olub. 1977-ci ildə Z.Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilib.

### ZAMAN-ZAMAN ÖYRƏNİLƏCƏK VƏ TƏDQİQ OLUNACAQ MƏKTƏB

Zərifə xanım zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Beynəlxalq aləmdə cəm olunaraq, bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycan səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə, elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli və zəngindir.Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir. Zərifə xanım milli oftalmologiyamızın inkişafı üçün çox işlər görmüşdür. Onun arzularından biri də yeni oftalmoloji kompleksin yaradılması olmuşdur. Onun təşəbbüsündən sonra ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə həmin kompleksin tikintisinə başlanılmış və görkəmli alimin istəyi müasir dövrümüzdə gerçəkləşmişdir. Ümummilli Liderin həyatından bəhs edən "Heydər Əliyev: Tale yolları" kitabının müəllifi Nikolay Zenkoviç Zərifə xanımın təvazökarlığından, mehribanlığından, yüksək keyfiyyətlərindən, mənəvi zənginliyindən də bəhs edir: "Mən Siyasi Büro üzvlərinin arvadları barədə bioqrafik məlumatları diqqətlə araşdırmışam, müqayisə etmişəm. Hansı nəticəyə gəlmişəm. Aydın olub ki, onlar arasında ən savadlı qadın Siyasi Büro üzvü Heydər Əliyevin xanımı olub. O, hətta Sov. İKP MK baş katibinin arvadı Raisa Maksimovnadan da savadlı idi. Özü də təkcə savadlı yox, Zərifə xanım hərtərəfli bir şəxsiyyət idi. SSRİ siyasi rəhbərlərinin o biri üzvlərinin evdar qadın olan maraqsız arvadlarından fərqli olaraq Heydər Əliyevin həyat yoldaşı dünyada tanınan bir insan idi." Sədaqətli həyat yoldaşı, qayğıkeş ana Zərifə xanım Əliyeva dünya şöhrətli dövlət xadimi Heydər Əliyev kimi müdrik, dahi bir insanın həyat yoldaşı kimi də əsl mənada yol yoldaşı olmuşdu. Zərifə xanımı tanıyanlar onun haqqında xatirələrini bu sözlərlə başlayırlar: "Çox nurlu, sadə, təvazökar bir insan idi".

...Zərifə Əliyeva adına Naxçıvan şəhər poliklinikasında tanınmış oftalmoloqun həyat fəaliyyətinə həsr olunmuş müzeyin açılışında iştirak edən ümummilli lider Heydər Əliyevə xatirə kitabında ürək sözlərini yazmasını xahiş etdilər: "Mnim ömür-gün yoldaşım, mərhum Zərifə xanımın adını daşıyan poliklinika ilə tanış olmaq, onun xatirəsinə həsr edilmiş guşəni seyr etmək məni dərin hissiyyatlara gətirdi. Xatirimdən heç vaxt çıxmayan, mənim üçün çox əziz olan insanın həyat və yaradıcılığını əks etdirən bu guşə məni coşdurdu. Bunların hamısı onun insani keyfiyyətlərinin böyüklüyünə, böyük elmi və həkimlik xidmətinə layiqli abidədir." Bəli, bu sözlər müdrik , böyük şəxsiyyət Heydər Əliyevin ömür-gün yoldaşına sədaqət nümunəsi, vəfa borcu idi.Zərifə xanım həm də cəfakeş, tələbkar, məsuliyyətli ana idi. Və bu gün dünya liderləri arasında tanınan, hər yerdə sözü imzası qədər dəyərli və qətiyyətli olan Azərbaycan Prezident İlham Əliyevin adı hörmətlə çəkilirsə, bu yüksəlişdə analıq vəzifəsinin müqəddəsliyini diqqət və qayğı ilə yerinə yetirən Zərifə xanımın əməyi olmuşdur.

Bir sözlə, Zərifə xanım Əliyeva qədirbilən xalqımızın, onu yaxınlardan tanıyanların, qohum və doğmalarının yaddaşında görkəmli ziyalı, elm xadimi, gözəl insan, vəfalı ömür-gün yoldaşı, qayğıkeş ana, bənzərsiz vətəndaş kimi qalmış, qalacaq və parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində yaşayacaqdır.

**RƏFİQƏ HÜSEYNOVA**


İlham Əliyev @azpresident

Təşəkkür edirəm, Əziz Qardaşım. Amin! TOGG Sizin liderliyiniz altında qardaş Türkiyənin elmi-sənaye potensialının inkişafının daha bir bariz nümunəsidir.

Recep Tayyip Erdoğan @RTErdogan · 2s
Türkiye devlet görevlisi
Gardaşım İlham Aliyev de Türkiye'nin gururu Togg'unu teslim aldı. Hanenize hayırlı olsun. Allah güzel günlerde kullanmayı nasip etsin gardaşım @azpresident.

ÖS 6:06 · 4 Nis 2023 · 36,2 B Görüntülenme

## Prezident İlham Əliyev tviterdə paylaşımında Türkiyə Prezidentinə təşəkkür edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkür edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bununla bağlı tviterdə paylaşım edib.

Azərbaycan Prezidentinin paylaşımında qeyd olunub: "Təşəkkür edirəm, Əziz Qardaşım. Amin! "Togg" Sizin liderliyiniz altında qardaş Türkiyənin elmi-sənaye potensialının inkişafının daha bir bariz nümunəsidir".

Xatırladaq ki, aprelin 4-də Türkiyənin ilk yerli elektromobili "Togg" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tviterdə bununla bağlı paylaşım edərək xoş arzularını bildirib. Türkiyə Prezidentinin təbrik tvitində qeyd olunub: "Qardaşım İlham Əliyev də Türkiyənin qüruru "Togg"u təhvil aldı. Xeyirli olsun. Allah gözəl günlərdə istifadə etməyi nəsib etsin, qardaşım".

# Geosiyasi oyunlar fonunda dünya üçün GÖZLƏNİLƏN "ZƏRBƏ"





Ukrayna ilə Rusiya arasında davam edən müharibə, bütün dünyanın buna yanaşması, Qərb tərəfindən sərgilənən mövqe elə bütün dünyanı da həqiqətən çox maraqlandırır və hətta hələ də ən aktual məsələ olaraq qalmaqdadır. Hər bir halda, arzuolunmaz münasibətlərin geosiyasi müstəvidə bundan sonra daha nələrə səbəb olacağına heç də laqeyid münasibət ola bilməz, ehtiyatlanıldığı da göz önündədir. Dünya ölkələrinin proseslərə öz mövqelərini bildirmələri də əbəs yerə deyil, narahatlıqların, ehtiyatlanlıdığının təzahürüdür. Bundan sonra daha xoşagəlməz, arzuolunmaz nəticələr, hansısa formada ortaya çıxacaq "zərbə" müzakirə mövzusudur və bütün dünyada da daha çox elə bu nəzərə alınır.

Hazırda Ukraynaya "hərbi təcavüz" adlandırılan hadisələr fonunda Qərb "cəhənnəm sanksiyaları" ilə bir növ, sadəcə öyünür. Məsələ burasındadır ki, bu sanksiyaların tətbiqinin bütövlükdə dünya üçün baha başa gəldiyi və bundan sonra da baha başa gələcəyi bir reallıqdır. Artıq mənfi təsirlər özünü göstərməkdədir və bunu bir çox istiqamətlərdə müşahidə etməkdəyik. Sanksiyaların tətbiqi ilə sənaye, ticarət, hətta banklar belə zərər görməkdədir və heç şübhəsiz ki, bundan sonra da həmin sahələr zərər görəcəklər. Bu da bir reallıqdır ki, hələ də Rusiyanın ixrac etdiyi təbii ehtiyatlara, məsələn təbii qaz ehtiyatlarına alternativlər axtarılır. Deməli, dünya ölkələri yaxşı başa düşürlər ki, Qərb, Avropa İttifaqı belə təhlükəli siyasi oyunlar oynamaqla elə dünyanın özünü təhlükədə qoymuş olur, hansıki bunun zərbəsinin hələ hansı şəkildə təzahür edəcəyi də hesablanmaqda, ölçülüb-biçilməkdədir. Hər bir halda məsələnin ciddiliyi qəbul edilməlidir və bunun fonunda doğru addımlar atılması gərəkir ki, Rusiya ilə pozulan münasibətlərin fonunda gözlənilən zərbəyə ən azından hazırlıq olsun.

"Financial Times" nəşri hələ bir il bundan öncə yazırdı və qeyd edirdi ki, Moskvanın çox güclü "kozırları" var və ondan istifadə etməyəcəyinə heç kimsə zəmanət verə bilməz. Yəni, nəşr tərəfindən açıq şəkildə etiraf olunurdu ki, Moskvanın imkanları böyükdür və belə olan halda ən böyük zərbənin ən azından təkcə Rusiyaya dəyəcəyini, rəqiblərinə dəyməyəcəyini düşünmək yaxşı halda sadəlövhlükdür. Vaşinqton və Brüssel tərəfindən Rusiyaya qarşı atılan addımlar, məsələn, SWIFT-i qlobal banklararası rabitə sistemindən ayırmaq, ən böyük kredit təşkilatlarının maliyyə bazarlarına çıxışını bağlamaq və Beynəlxalq Valyuta Fondunun vəsaitlərinə moratorium elan etmək qərarları hansı tərəfə daha böyük zərbə demək olduğu maraqlı məqamdır, hansı ki, bunu araşdıranlar da az deyil. Sadəcə bunun nəticələrinin nələri vəd etdiyi, Qərb iqtisadçılarının xəbərdarlıqları sanki nəzərə alınmır. Yaxşı, bəs geosiyasi oyunlar zamanı gözlənilən əks zərbə haqqında heçmi düşünülmür və görəsən bu məsələdə "qurbanlıq" nədir?

Birinci növbədə nəzərə almaq lazımdır ki, dünyada, ələlxüsus da Avropada böhran, özü də enerji böhranı, eləcə də hələ bundan sonra daha hansı böhranlı vəziyyətin olacağı çoxdandır ki, rezonans doğurub. Xüsusən avropalılaq heç də rahat deyillər və enerji ilə bağlı narahatlıqları da başadüşüləndir. Maraqlıdır, Qərb kimin üzərində "təcrübə" aparır? Etiraf etmək lazımdır ki, enerji ilə bağlı asılılıq hədsiz böyükdür və təbii qazın 46 faizini Rusiya təmin etdiyi də bir reallıqdır. Elə isə, sansiyaların, yaxud hansısa təsir rıçaqlarının qarşılığında Rusiyanın adekvat addımlarının zərbəsinə hazırlıq varmı? Neftlə bağlı mənzərənin də eyni şəkildə olduğunu nəzərə alsaq, istənilən məhdudiyyətin tətbiqinin nəticə etibarı ilə hələ kimə daha böyük mənfi təsir edəcəyi, daha dəqiq desək, zərbəsi dərhal göz önündə canlanır. Məhdudiyyətlərin birmənalı şəkildə, həm qiymət artımına, həm də yükdaşıma bazarına mənfi təsir göstərməsi, Avropadakı neft emalı zavodlarını təmin edən boru kəmərlərində neft axını ilə bağlı fasilələrin yaranması təsirsiz ötüşə bilərmi? Əlbəttə ki, ötüşə bilməz və bunun zərbəsi necə isə nəzərə alınıbmı, yaxud bundan sonra nəzərə alınacaqmı?

Onu da diqqətə çatdıraq ki, son illərdəki logistika pozğunluqlarının və pandemiya ilə bağlı lokdaunların nəticəsi olaraq, dünya artıq sənaye metallarının kəskin çatışmazlığı ilə üzləşib, hətta xammal böhranı da var. Məhz London birjasında spot müqavilələrin bahalaşması bu səbəbdən təsadüfi sayılmır və treyderlərin malları daha tez əldə etmək üçün böyük mükafat ödəməyə hazır olmaları da əbəs yerə deyil. Vəziyyətin ekstremal olduğu günün reallığıdır və sanki bütün bunlar nəzərə alınmır. Sanki, tələbatın artmasına təklifin ümumiyyətlə cavab vermədiyini görən də yoxdur, əks halda qeyd olunan məhdudiyyətlər, yaxud da hansısa sanksiyalar müzakirə mövzusu belə olmazdı. Rusiya həm də ən böyük alüminium və mis istehsalçısıdır, hansı ki, dünya bazarının altı faizini alüminiumla, on faizini də mislə təmin edir. Nəzərə alsaq ki, əsas əmtəə birjalarında mis ehtiyatları arzuolunmaz həddədir, hansı ki, bu ehtiyatlar bir həftəyə belə kifayət etməyə bilər, alüminium da tükənir və bunun nəticəsində Avropa, eləcə də Çindəki metallurgiya zavodları artan enerji xərcləri səbəbindən istehsalını azaldır, deməli buradan da bəlli olur ki, məsələ təkcə enerji ilə də bitmir.

Avtomobil istehsalında lazım olan palladiumun təxminən 40 faizini və aerokosmik sənayedə istifadə olunan titanın təxminən üçdə birini Rusiyanın tədarük etməsi də burada nəzərdən qaçmamalıdır. Ən azından bunların tədarükünün azaldılması, yaxud da dayandırılması ilə bağlı Moskva qərar verə bilər. Təbii ki, sanksiyalar olacağı təqdirdə Avropa iqtisadiyyatına daha bir zərbə Rusiyada neft nəhəngləri olan BP, Total və Shell şirkətlərinin birgə müəssisələrinin məhv edilməsi ilə ola bilər. Bir daha sual yaranır ki, Avropa buna hazırdırmı və ümumiyyətlə, bunun barəsində düşünübmü? Kimin daha böyük zərər görəcəyi düşünülürmü? Sözsüz ki, bütün bunlar düşünülməlidir, nəzərə alınmalıdır, əks halda bir çox istiqamətlərdə dəyəcək zərbə əvvəlcədən qəbul edilməlidir.

Yenə də xatırladaq ki, bir il bundan əvvəl "Financial Times" nəşri Avropa İttifaqının kredit təşkilatlarına Rusiyanın borcunun təxminən 60 milyard dollar olduğunu yazmışdı. Nəşr həmçinin diqqətə çatdırırdı ki, bu rəqəm Amerikanın borcundan təxminən dörd dəfə çoxdur. Bir sözlə, Qərbin hər hansı bir qeyri-dost hərəkətlərinin, qərəzinin müqabilində xərclərini azaltmaq üçün fəal tədbirlər görmək imkanına malik olan Moskva ilə müqayisədə Avropa İttifaqı istənilən məhdudiyyətə daha az və çox pis hazırlıqlı olduğu ortaya çıxır və daha böyük zərbə ala biləcəyi də təkzib edilə bilməz. Yəni, Rusiya üçün dollara çıxışın məhdudlaşdırılması, bu ölkənin beynəlxalq ödəniş sistemlərindən ayrılması heç yaxşı nəticələr vəd etmir və avropalı tərəfdaşları bunu nəzərə almalıdırlar.

Amerikalılar özləri də fərqli düşüncədə deyillər və proseslərin hansısa yaxşı nəticələrə səbəb olacağı kimsənin ağlına belə gəlmir. Ona görə ki, amerikalılar özləri də alternativ variant belə təklif etməkdə, yaxud araşdırmaqda, tapmaqda çətinlik çəkirlər və bunu açıq-aşkar ifadə də edirlər. Amerikalıların özləri də çəkinmədən etiraf edirlər ki, sanksiya və məhdudiyyətlərlə bağlı bütün səylər faydasızdır, eləcə də çox təhlükəlidir. Çünki onlar əmindirlər ki, yaxın 20 il ərzində bütün dünya Rusiya xammalı olmadan heç nə edə də bilməz, dünya buna alternativ də tapmaq iqtidarında deyil. Yəni, yeni böhran, yeni problemlər sanki göz ardına alınır. Halbuki, sanksiyaların, təhdidlərin fonunda yeni böhranın olacağını anlayanlar hər bir halda çıxış yolu axtarmaqda, tapmaqda çətinlik çəkirlər deyə ən azından narahat olmalıdırlar.

Məsələ burasındadır ki, təkcə enerji ehtiyatları, xammal və digər resurslarla əlaqədar təhlükədən danışmaqla kifayətlənmək olmaz. Rusiyanın güclü dövlət olduğunu, hərbi potensialının kifayət qədər böyük olduğunu diqqətdən qaçırmaq məsələyə bəsit yanaşma olar. Unutmaq lazım deyil ki, Rusiya nüvə silahına sahib bir ölkədir. Bu gün Rusiyanı dünyanın xəritəsindən silmək istəyənlər varsa, bu niyyətləri ilə böyük səhvə yol verdiklərini anlamalıdırlar. Bilməlidirlər ki, nüvə silahına sahib nəhəng bir ölkə barədə belə bir niyyət çox təhlükəlidir və bunun zərbəsi bütövlükdə dünya üçün dəhşətli faciə deməkdir. Heç şübhəsiz ki, təhdidlər, təzyiqlər, sanksiyalar bununla müqaisə olunacaq belə deyil. Kim təminat verə bilər ki, məhv olma, hətta tənəzzülə uğrama təhlükəsi ilə qarşılaşdığı zaman Rusiya nüvə silahından istifadə etməyəcək? Dünya xəritəsində olmayacağını gördüyü, yaxud duyduğu zaman Rusiyanın itirəcəyi nə ola bilər və belə olan halda, həmin dövlətin digərlərini də məhvə məhkum etmək istəyinin, niyyətinin ola biləcəyi də mümkün variant kimi nəzərə alınmalıdır. Nüvə silahı kimi bir vasitənin istifadəsi, belə bir variantın tətbiqi isə ümumilikdə dünya üçün, planetimiz üçün böyük bir faciə, böyük zərbə deməkdir.

Bəllidir ki, dünyada söz sahibi, liderlik, yaxud hegomonluq uğrunda geosiyasi oyunlar gedir və ən başlıca rəqib də məhz Rusiya hesab olunur. Qərb indi Rusiyanı istənilən müstəvidə ən azından oyundankənar vəziyyətdə qoymağa çalışır. Hətta Cənubi Qafqazda belə Rusiyanın mövcudluğuna son qoyulması üçün çalışan Qərb özünün geosiyasi oyunlarına Ermənistan kimi marionet dövlətləri də alət edir. Müvafiq sanksiyalar, təzyiqlər, təhdidlər belə rəsmi Moskvanın sıxışdırılmasının təzahürü kimi diqqəti cəlb edir. Bunun ardınca Rusiyaya qarşı daha hansısa məhvedici məramlı planların işlədiləcəyi niyyəti də təkzib edilməzdir. Bəli, Rusiya hədəfdir, planın da nədən ibarət olduğu barədə fikirlər də kifayət qədərdir və bunların əksəriyyətinin məhz həmin ölkənin əleyhinə olduğu da ortadadır. Amma görək bu zamana qədər tətbiq olunanlar Moskvanı geri çəkilməyə vadar edə bilibmi? Bilməyib. Heç bundan sonra da geri çəkilməyə vadar edəcəyinə ümid belə yoxdur. Hər bir halda, Rusiya kimi nəhəng, nüvə silahına sahib bir ölkə ilə təhdid dili ilə danışmağın faydasızlığı bəlli olub. Görünən odur ki, Rusiya sona qədər öz mövqeyinə geri çəkilmək niyyətində deyil və ən sonda, yəni istənilən mənada itirməli olacağı təqdirdə, qlobal miqyasda itgilər olması üçün istənilən addımı da ata bilər. Hətta nüvə silahının tətbiqi belə müzakirə mövzusu olar. Buradan da belə bir nətcə çıxır ki, Moskva ilə dialoq qurmaq, razılığa gəlmək ən doğru seçim sayılmalıdır. Yəqin ki, bunu Avropa, Qərb hamıdan yaxşı başa düşür, çünki gözlənilən zərbənin nə demək olduğunun fərqində olmaq üçün dərin zəkaya, yaxud heç çox düşünməyə də ehtiyac yoxdur.

***İnam Hacıyev***

ANALİTİKA+FAKT

# USAİD-in Azərbaycandakı fəaliyyəti: irqçilik və qərəz!

Bilavasitə Sorosun təlimatları əsasında fəaliyyət göstərən ermənipərəst Samanta Pauer zaman-zaman Azərbaycana və Türkiyəyə qarşı sırf düşmənçilik mövqeyini nümayiş etdirib



**USAİD adlı təşkilatın pərdəarxası məqamları barədə kifayət qədər yazılarla çıxış etmişik və bu barədə məqalənin alt hissələrində linkləri təqdim edəcəyik. Əsasən də, "humanitar" fəaliyyət adı altında tamamilə fərqli mövqelərdə dayanan USAİD paralel olaraq Azərbaycan torpaqlarının işğala məruz qaldığı dönəmlərdə bilavasitə Qarabağdakı separatçılarla işbirliyi aparıb. Bütövlükdə adıçəkilən təşkilatın fəaliyyət istiqamətinin qurulmasının təməlində isə amerikalı milyarder Corc Sorosun dayanması faktları mövcuddur. Bu baxımdan, bir sıra diqqətçəkən məqamları qeyd etmək və xatırlatmaq yerinə düşərdi.**



## Laçın yolu üzərindəki Pauer isterikası

Xüsusilə, digər fəaliyyətləri ilə yanaşı, korrupsiya əməllərinə də bulaşmış USAİD-in hazırkı rəhbəri Samanta Pauerin birbaşa və açıq-aşkar anti-Azərbaycan xarakterli mövqeyi, o cümlədən, islamafobiya xəstəliyinə mübtəla olması faktı da bir sıra danılmaz dəlillərlə sübuta yetirilib.

Bu, həmin Samantadır ki, özünün tvitter səhifəsində Azərbaycan ekoloqlarının və QHT fəallarının guya Laçın yolunu "bağlamalarını" hədəfə alan ittiham xarakterli fikirlərini yazıb, eləcə də həmin yolun açılmasını tələb edib. Hansı ki, hazırkı gündə də Xankəndiyə gedən və əks istiqamətdəgeri dönən humanitar yüklərin daşınmasına baxmayaraq Pauerin səs-küy qaldırması da artıq özü-özlüyündə hər şeyi tam çılpaqlığı ilə ortaya qoymaqdadır və əslində, bundan təəccüblənməyə də dəyməz.

## USAİD nə demək istəyir?

Beləliklə keçək faktlara. Misal üçün, Sorosun əlaltısı olan bu qadın sözügedən tvitində yazmışdı ki, Laçın dəhlizi dərhal (??!!) açılmalıdır və onun bağlanması "humanitar böhrana" səbəb ola bilər. Halbuki, RSK, o cümlədən, fəaliyyətində şübhələr doğuran daha bir qurum - Beynəlxalq Qırmızı Xaç Təşkilatı ərzaqları, tibbi ləvazimatları, dərmanları və s. humanitar yükləri Xankəndiyə daşıyır, xəstələr Ermənistana daşınır, aksiyaçılar isə bu yolu əsla bağlamırlar. Bir çox xarici KİV nümayəndələri və müxtəlif xarici təşkilat təmsilçiləri də həmin prosesləri öz gözləri ilə izləyiblər. Bu zaman sual yaranır - USAİD rəhbərliyi bununla nə demək istəyir?

## Samanta Pauer zaman-zaman Azərbaycana və Türkiyəyə qarşı sırf düşmənçilik mövqeyini nümayiş etdirib, həmçinin, irqçi mövqeyi ilə seçilib









Yeri gəlmişkən, onu da xatırladaq ki, bilavasitə Sorosun təlimatları əsasında fəaliyyət göstərən ermənipərəst Samanta Pauer zaman-zaman Azərbaycana və Türkiyəyə qarşı sırf düşmənçilik mövqeyini nümayiş etdirib, hətta irqçi mövqeyi ilə seçilib. SİA-nın əldə etdiyi məlumata görə, o, hələ 2021-ci ildə Ermənistandakı Amerika Universitetinə yeni qəbul edilmiş tələbələrə onlayn müraciət edib və Azərbaycanla Türkiyəni təhqirə məruz qoymaqla "vəhşi" (!!!) adlandırıb. Ermənistanın işğalçılıq və təcavüzkar siyasəti nəticəsində Azərbaycanın minlərlə günahsız qurbanlarının - qoca və qadınlarının, körpə uşaqlarının qətliamlara, soyqırımlarına məruz qalması faktını bir tərəfə qoyan bu ünsür Ermənistanda fəaliyyət göstərən Amerika universitetinin 6 tələbəsinin müharibədə həlak olmasına görə üzüldüyünü və yas saxladığını demişdi. Görəsən, Samanta Pauer İkinci Qarabağ müharibəsində torpaqların azadlığı uğrunda canlarından keçərək şəhid olan gənc tələbələrin, ali təhsil müəssisələri məzunlarının ölümlərinə, həyatlarının yarım qalmalarına görə təəssüf edibmi? Əlbəttə ki, əsla! Çünki o, açıq-aşkar ermənipərəstdir və erməni lobbisinin pullarını yeyir, üstəlik, bu kimi kirli siyasətin yürüdülməsində şefi olan Sorosun da dəstəyini, təlimatlarını almaqda davam edir.

## Pauer "qondarma erməni genosidini" tanıması ilə fəxr etdiyini bildirir

Və bu, həmin Samantadır ki, ermənilərlə təmasda olarkən hər dəfə çıxışının əsas hissəsini Bayden administrasiyasının "qondarma erməni genosidini" tanıması faktını önə sürür, bununla fəxr etdiyini bildirir və ən maraqlısı - "nə dərəcədə rahatlıq hissi" tapdığını etiraf edir!

Yeri gəlmişkən, ermənipərəst Pauerin Azərbaycan və Türkiyəyə qarşı olan həmin çıxışın videosu ilə aşağıdakı linkdən tanış ola bilərsiniz:

https://www.usaid.gov/news-information/videos/american-university-armenia-commencement-remarks

Xatırladaq ki, USAİD-in rəhbəri əvvəllər də Azərbaycan xalqını təhqir və təhdid edərək sərsəm fikirlərini ictimailəşdirib və biz SİA olaraq bu haqda silsilə yazılarla çıxış etmişik. Təəssüf ki, bütün bu kimi faktlar ortada ola-ola USAİD-in Azərbaycan nümayəndəliyi hələ də ölkəmizdəki mövcudluğunu qoruyub-saxlayır...

"SƏS" qəzeti olaraq biz dəfələrlə bu təşkilatın açıq ermənipərətslik və türkofob mövqeləri barədə, habelə hansı siyasi korrupsiya əməllərinə bulaşması barədə geniş, silsilə xarakterli məqalələrlə çıxış etmişik. Həmin məqalələrin bir qismini yenidən xatırlatmaq məqsədi ilə linklərini təqdim edirik:

https://sia.az/az/news/politics/936249.html
https://sia.az/az/news/politics/896995.html
https://sia.az/az/news/politics/877915.html
https://sia.az/az/news/politics/874152.html

***Rövşən RƏSULOV***

ANALİTİK + AKTUAL

# Rusiya Ukrayna cəbhəsində zəifləyibmi?












### Əslində isə, hər şey göründüyü kimi deyil

Rusiyanın Ukrayna ilə artıq 1 ildən çox davam edən müharibəsindən sonra belə anlaşılırdı ki, Kremlin dünyadakı mövqeyi getgedə zəifləməyə başlayacaq və nəticə etibarı ilə Şimal ayısı öldürücü zərbəsini də məhz Ukraynada alacaq. Daha dəqiq desək, bir sıra ekspertlər və analitiklər belə bir qənaətə də gəlirdilər ki, Rusiyanın başının Ukraynada qarışması bu ölkənin regiondakı var-gəllərini azaldacaq. Lakin bu həqiqətənmi belədir? Ümumiyyətlə, Kreml həqiqətənmi bütün gücünü və diqqətini bilavasitə Ukraynaya doğru yönəldib? Əslində isə, hər şey göründüyü kimi deyil...

### Qazaxıstanda Ukrayna ssenarisi təkrarlana bilərmi?

Bu günlərdə Qazaxıstanda, daha dəqiq desək, rusların daha çox yaşadığı Petrapavlosk şəhərində yaşanan olay növbəti nəticələrə gəlməyə vadar edir. Belə ki, Qazaxıstanın şimalının Rusiya ilə həmsərhəd olduğu bu regionu daha əvvəllər də Kremlin əlində əsas rıçaqlardan biri olaraq seçilib. Bu şəhərdə yaşayan bir neçə min rus mənşəli sakinlər özlərinin müstəqillikləri, öz müqəddəratını təyin etmək hüquqları və suverenlikləri barədə bəyanat yayıblar. Həmin bəyanatda isə deyilir. SİTAT: "Biz sərbəst və azad xalq, kişilər və qadınlar, Şimali Qazaxıstan Respublikasının Petropavlovsk şəhərinin çalışan sakinləri, Qazaxıstan Respublikası korporasiyasının hüquqi əsasının saxta olması, xalqın həyatı üçün əlverişsiz şəraitin yaradılması, habelə onun agentlərinin bacarıqsızlığı və şərəfsizliyi səbəbindən bizim sərvətimizi və resurslarımızı idarəetmə sisteminin bütün təsisçilərinə və işçilərinə tam inamsızlığımızı bildiririk. Biz xalq olaraq öz müstəqilliyimizi, sərbəstliyimizi və suverenliyimizi elan edirik".

Separatçılar 19 mart 2023-cü il tarixli görüşdə sədr və katib seçdikləri, "bəyannamə", "nizamnamə layihəsi", "Xalq Şurasının simvolları"nı qəbul etdikləri bildirib və bununla yanaşı, Qazaxıstanın təhsil, qida məhsulları və səhiyyə sisteminə qarşı çıxıblar. "Uğurlu sovet təhsili sistemi destruktiv dərsliklərlə xarici standartlara uyğun surroqatla tərəfindən əvəz edilib..", separatçıların bəyanatında deyilir. Onlar paralel olaraq vilayətin ayrıca "milli təhlükəsizlik", " daxili işlər" qurumlarını yaradıb, "prokuror" təyin ediblər.

**Petropavlovsk separatçıları Rusiya ordusundan tələb edəcəklər ki, onlar Qazaxıstanın rusdilli əhalisini "qazax millətçilərindən müdafiə etsinlər"**

Onu da xatırladaq ki, Petropavlovsk Qazaxıstanın şimalında (Şimali Qazaxıstan vilayətinin inzibati mərkəzi) Rusiya ilə sərhəddən 40 km cənubda yerləşir. Əhalisi 200 mindən çoxdur, bunların 58% - i rusdur. Şəhərin aparıcı müəssisəsi neft və qaz avadanlığı istehsalçısı olan Petropavlovsk ağır maşınqayırma zavodudur. Beləliklə, bu məsələdə kənar təsirin, daha doğrusu, Kremlin barmağının olması şübhə doğurmur. Yəni fakt budur ki, Ukraynada istila müharibəsi aparan Rusiya hazırda Qazaxıstan planlarını da icra edir və yuxarıda qeyd edilən hadisə də bu reallığı əks etdirməkdədir.

Əslində, bu ssenari Ukraynada başlayan Maydan hərəkatına və ondan sonrakı proseslərə də bənzəməyə başlayıb. Misal üçün, Qazaxıstanın suverenliyi və ərazi bütövlüyü uğrunda başlaya biləcək xalq etirazlarından sonra məhz Petropavlovsk separatçıları Donetsk-Luqansk separatçıları kimi Rusiyadan hərbi yardım istəyəcəklər, Rusiya ordusundan tələb edəcəklər ki, onlar Qazaxıstanın rusdilli əhalisini "qazax millətçilərindən müdafiə etsinlər". Yəni bu, son etibarı ilə Rusiyanın Qazaxıstana qarşı irimiqyaslı müharibəsinə qədər inkişaf edə biləcək bir məsələdir. Artıq nüfuzlu konfliktoloqlar da hadisələrin buna doğru inkişaf edəcəyini bildirirlər.

### Abxaziya, Cənubi Osetiya, Dnestryanı, Qarabağ...

Bu gün Gürcüstandakı Abxaziya-Cənubi Osetiya problemi də bu kimi bənzərliklərin tərkib hissəsidir. Nəzərə alsaq ki, Dnestryanı problemi arxasında da Rusiya dayanıb, bu zaman hadisələrin məhz Kreml tərəfindən diqqətdə saxlanıldığını deyə bilərik. Bu baxımdan, Rusiyanın Ukraynada müharibə aparması səbəbindən Moskvanın mövqelərinin zəifləməsi elə də inandırıcı görünmür. Hətta Rusiyanın bundan sonra hələ uzun müddət Ukraynada savaş aparması, reallıqda isə Qərblə qarşıdurmada qalması inandırıcı görünməkdədir.

Və nəhayət - Cənubi Qafqaz regionu faktorunda da Moskvanın bir sıra maraqları göz önündədir. Azərbaycanın öz torpaqlarını erməni işğalından azad etməsindən sonra regiona sülhməramlı kontingentinin göndərilməsi məqsədləri də bu sıradandır. Daha dəqiq desək, kontingentin fəaliyyətinin daha çox neqativliklərlə müşahidə edilməsi, xüsusilə, RSK-nın separatçılarla zaman-zaman iş birliklərinə getməsi də bu cür nəticəyə gəlməyə zəmin yaradır ki, Moskva bu regionda da öz mövcudluğunu hər vəchlə qoruyubsaxlamağa can atır.

### Putin Paşinyanın Gürcüstanın esk-prezidenti Saakaşvilinin yerində, vəziyyətində olmasını arzulayır

Lakin Rusiyanın daha bir məqsədi və hədəfi əlbəttə ki, Ermənistandır. Hazırda bu ölkədəki mövcud iqtidarı devirməyə çalışan Kreml müxtəlif planlarını icra etməyə başlayıb. Məlumdur ki, Rusiya prezidenti Vladimir Putinin Ermənistanın baş naziri Nikol Paşinyana qarşı ayrıca nifrəti var. Hətta belə desək, Putin Paşinyanın Gürcüstanın eks-prezidenti Saakaşvilinin yerində, vəziyyətində olmasını arzulayır. Və Kreml İrəvanda özünün nəzarətində olan adamlarını hakimiyyətə yiyələndirməyə çalışır.

Misal üçün, Qarabağa göndərdiyi Ruben Vardanyanın sonradan siyasi desant qismində, yəni tramplin olaraq Ermənistana atılması ideyası da buradan qaynaqlanır. Beləliklə, Vardanyanın Putinin layihəsi olması kimsəyə sirr deyil. Bütün bu kimi olaylar isə bir daha sübut edir ki, Moskva sakit dayanmır və Rusiya əlində olan-qalan bütün imkanlarını və resurslarını məhz o istiqamətə tərəf yönəldir ki, onların hə biri öz maraqlarını təmin etsin. Moskvanın Ukraynanın istilası məsələsində direniş göstərməsi də bu məqamları ehtiva etməkdədir.

*Rövşən RƏSULOV*



## Azərbaycan QHT-lər BMT Baş Katibinə müraciət göndərdilər

4 aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günü ilə əlaqədar olaraq Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələri BMT-nin Baş Katibi cənab Antonio Guterresə müraciət ünvanlayıblar. SİA xəbər verir ki, müraciətdə 30 illik işğal zamanı Ermənistanın minalardan istifadə etməsinin bu gün də dinc əhali üçün böyük təhlükə yaratdığını və humanitar minatəmizləmə sahəsində fəaliyyət göstərən bir sıra əsas qurumlarla tərəfdaşlıq məsələlərinə toxunulub. Eyni zamanda, 2023-cü il may ayının sonunda Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olması üzrə minatəmizləmə fəaliyyətinin bir hissəsi olaraq İkinci Beynəlxalq Minatəmizləmə Konfransı keçiriləcəyi də müraciətdə qeyd olunub.

# Erməni südü və Roma nizamnaməsi

## *Rusiya-Ermənistan qarşıdurması həqiqətdir, yoxsa imitasiya?*

Rusiya-Ermənistan münasibətləri özünün ən pis günlərini yaşayır. Hər halda yazılanları oxuyandan və gördüklərimizdən bu qənaətə gəlmək olar. Nəzərə alsaq ki, siyasətin, xüsusən də dövlətlər və xalqlar arasında yürüdülən siyasətin 8-9 üzü var, burada deyilən və yazılanların, gördüklərimizin həqiqətlə eyniyyət təşkil edəcəyində də şübhələrin çox olduğunu deyə bilərik. Ermənilərin bir millət kimi formalaşmasında, dünyanın hər yerindən toplanıb Qafqaza doldurulmasında, Ermənistan adlı qondarma dövlətin yaranmasında Rusiyanın bütün dönəmlərdə rolu böyük olub. Bəzən elə fikir formalaşıb ki, sanki Rusiya tək ermənilər və Ermənistan üçün var, onları himayə etmək üçün mövcuddur. Nə qədər Rusiya ilə Azərbaycan arasında səmimi, dostluq münasibətləri yaratmağa çalışsaq da Moskva bunu görməzdən gəlirmiş kimi görünür, iki daşın arasında, imkan düşən kimi özünü ermənilərin dostu, böyük qardaşı kimi təqdim edir, ermənipərəstliyini gizlətmir.Bu gün Ermənistan rəhbərliyi kimi erməni ictimaiyyəti də Azərbaycanla aparılan müharibədə uğradıqları məğlubiyyətin əsas günahkarı kimi yenə Rusiyanı görürlər. Ona görə yox ki, Rusiya ermənilərə qarşı döyüşlərdə iştirak edib, ona görə ki, Rusiya Ermənistanın ədalətsiz müharibəsində, Azərbaycana qarşı işğalçılıq siyasətində İrəvanın və ermənilərin tam olaraq yanında olmayıb. Ermənilərin düşüncəsinə görə bu müharibədə Rusiya ordusu tam heyyətlə iştirak etməli idilər. Əgər Rusiya bitərəf qalıbsa, deməli xəyanətkardır, döyüşlərə qatılmayıbsa ermənilərin düşmənidir. İndi də vəziyyət gərgin kimi görünür, Ermənistanın hərəkətləri onu deyir ki, artıq İrəvan üzünü Moskvadan Brüsselə tərəf çevirib. Ünvanı daha dəqiq desək, Ermənistan Fransaya tərəf boylanmaqla Rusiyanın iştahasını və əhvalını təlx etməklə məşğuldur.

Yaxınlarda Rosselxoznadzor Ermənistandan Rusiyaya süd məhsullarının idxalının məhdudlaşdırılması məsələsinə baxıb. Səbəb nəzarətin zəif olması, Ermənistan tərəfinin məhdudlaşdırıcı tədbirlərin pozulması, Ermənistan müəssisələrinin Rusiyanın çoxdan imtina etdiyi İrandan gələn keyfiyyətsiz xammaldan istifadə etməsidir. İrəvandan martın 31-dək vəziyyətlə məşğul olmaq tələb olunub. Bu, Ermənistanın Rusiya Xarici İşlər Nazirliyinin ”İrəvanın tamamilə qəbuledilməz planı” adlandırdığı Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma Əsasnaməsinə qoşulmağa hazır olması fonunda baş verir, çünki məhz bu instansiya Vladimir Putinin həbsinə order verib.

Erməni tərəfi Rosselxoznadzorun iddialarının əsaslı olduğunu tanıyıb. Üstəlik, bu onu göstərir ki, Rusiya tərəfi süd məhsullarının keyfiyyəti məsələsini ilk qaldıran ölkə deyil. İrəvanın məlumatına görə, yerli ”Hetk” nəşri əvvəllər kəsmik nümunəsi ilə araşdırma aparıb və müəyyən edib ki, Ermənistanda istehsal olunan 10 növ süd turşusu məhsulundan yalnız 2-si keyfiyyət standartlarına cavab verir. Eyni zamanda, Ermənistanın Qida Təhlükəsizliyi Müfəttişliyi süd məhsullarında insanların həyat və sağlamlığına təhlükə yaradan hər hansı çatışmazlıq aşkar etməyib. Agentlik iddia edir ki, bütün qida istehsalı zənciri kimi süd məhsullarının istehsalına da hüquqi aktlara uyğun yüksək səviyyədə nəzarət edilir. Təftiş Qurumunun bəyanatında deyilir ki, Rusiya tərəfi ilə yaranmış problem müzakirə olunur və qərar daha sonra ictimaiyyətə açıqlanacaq.

Ticarətdə təbii ki, hər şey ola bilər. Lakin Rusiyanın bəzi dövlət orqanlarına tapşırılıb ki, onların qadağanedici tədbirlərindən əvvəl ölkənin maraqlarına zidd olan müəyyən siyasi hadisələr baş verəndə fəaliyyətə başlasınlar. Bu dəfələrlə baş verib, məsələn, gürcü və moldova şərabları, abxaziya naringiləri, Azərbaycan və türk pomidorları və nektarinləri, özbək albalı, Polşa almaları ilə və s.



Moskva ilə İrəvan arasından qaçan ”qara pişik” Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma Əsasnaməsinə qoşulmaq qərarı olub. Bu, Rusiya prezidenti Vladimir Putinin həbsi üçün Haaqa məhkəməsinin verdiyi order fonunda baş verir. Ermənistan Konstitusiya Məhkəməsi Roma Nizamnaməsində respublikanın Əsas Qanununa zidd heç nə aşkar etməyib və bəzi qeyd-şərtlərlə Ermənistanın bu sənədə qoşulmasına icazə verib.

İrəvanın bu prosesin 10 ildən çox əvvəl başladığına dair əlavə izahatları Moskvanı heyrətləndirmədi. Rusiya Xarici İşlər Nazirliyi Ermənistanın ehtimal edilən hərəkətlərini tamamilə qəbuledilməz adlandırıb və belə bir qərarın mənfi nəticələri barədə İrəvana xəbərdarlıq edib.

Ermənistanın özündə də baş verənlərə münasibət birmənalı deyil. Vaxtilə hakimiyyətdə olan Respublika Partiyası xüsusi bəyanat yayaraq hakimiyyətin qərarını ”gözlənilməz nəticələrlə dolu ifrat siyasi korluq” adlandırıb. Respublikaçılar vurğulayırlar ki, BCM çox siyasiləşmiş orqandır və təsadüfi deyil ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ABŞ, Çin və Rusiya kimi güclü dövlətlər bu nizamnaməni imzalamayıb, ratifikasiya etməyib və gələcəkdə də etmək niyyətində deyillər.

Ermənistan hakimiyyətinə Roma Əsasnaməsini ratifikasiya etməkdən imtina etmək üçün oxşar çağırışı Rusiya Erməniləri İttifaqı da edib və Ermənistan parlamentinin öz vətəndaşlarının və Rusiya Federasiyasının üç milyon erməni icmasının maraqlarının xatırlayacağına ümid etdiyini bildirib. Belə bir siyasi fonda Rosselxoznadzorun erməni südünə iddialar ortaya çıxıb. Politoloq və iqtisadçı Qrant Mikaelyanın verdiyi məlumata görə, süd məhsullarının tədarükünə qoyulan qadağa siyasi qismədir və ayrı-ayrı şirkətlərə aiddir. Baxmayaraq ki, baş verənlər embarqo işarəsi kimi qiymətləndirilməlidir, çünki burada siyasi komponent var: ”Rusiyaya süd məhsullarının ixracının həcmi kiçikdir - ildə cəmi 20 milyon dollara çatır. 2022-ci ildə neft hesabına ixracın həcmi daha 15 milyon dollar artıb. Ehtimal etmək olar ki, bu, qeyri-erməni mənşəli məhsulların Rusiya bazarına təkrar ixracı ilə bağlıdır. Nəzərə alsaq ki, ötən il Moskvadan süd məhsullarına heç bir iddia olmayıb, bu, keyfiyyətlə bağlı deyil, siyasi məsələdir - Ermənistanın Roma Nizamnaməsinin ratifikasiyasında olduğunu deməyə əsas verir”.



Onun fikrincə, vəziyyətin daha da pisləşəcəyi ehtimalı var. ”Rusiya artıq birbaşa bəyan edib ki, ratifikasiya Rusiya-Ermənistan münasibətlərinə mənfi təsir göstərəcək. Buna baxmayaraq, hələlik yekun qərar olmasa da, sənədin ratifikasiya olunacağı ehtimalı böyükdür. Və sonra Moskvanın təzyiqi bütün Ermənistan-Rusiya ərzaq bazarına, biznesə keçə bilər”, - iqtisadçı vurğulayıb. Mikaelyanın fikrincə, bu, Rusiyanın Ermənistandakı əleyhdarlarının və qərbyönlü qüvvələrin əl-qolunu açacaq ki, bu da İrəvanı Moskvadan daha da uzaqlaşdıracaq.

”Belə təcrübə artıq digər postsovet ölkələrində də var. Rusiya biznesə təzyiq göstərməklə yerli rəhbərliyə təzyiq göstərməyə çalışır. Amma bu həmişə işləmir. Biznes siyasətə təsir edə bilməz, ən azı xarici siyasətə təsir göstərə bilməz. Məqsəd çətin ki, reallaşsın, amma prosesdə Ermənistan-Rusiya münasibətləri zərər görəcək. Yenə deyirəm, belə bir perspektiv gözlənilməz nəticə deyil, amma realdır”, - Hrant Mikaelyan bildirib.

RAKURS

### Qarabağda ”Moskva vaxtı”

Azərbaycanlı ekoloji fəalların Laçın yolunda keçirdikləri aksiya artıq 104 gündür ki, davam edir. Moskva və Vaşinqtonda Qordi düyününü kəsmək üçün növbəti cəhd edilib. Rusiyanın xarici işlər naziri Sergey Lavrov Rusiyanın paytaxtında Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ilə danışıqlar aparıb. Eyni zamanda ABŞ Dövlət Departamentinin katibi Entoni Blinken Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığı aparıb. Rusiya və Ermənistan xarici işlər nazirliklərinin rəhbərləri ikitərəfli münasibətlərin bütün spektrindən keçiblər ki, bu da təkcə əksər mövqelərdə üst-üstə düşməsi deyil, həm də tərəflərin fikirlərində bəzi fərqləri ortaya qoyub. Xüsusilə, söhbət Ermənistanda, onun Azərbaycanla sərhədində avropalı mülki müşahidəçilər missiyasının yerləşdirilməsindən gedir. Ermənistanın KTMT ilə problemləri də ”həll edilməyib”, amma burada kiçik müsbət irəliləyişlər var. Ermənistan XİN rəhbəri bəyan edib ki, İrəvan KTMT missiyasından imtina etməyib, layihə var, onun üzərində iş davam edir. Bunun nə üçün indiyədək baş vermədiyini izah edən Mirzoyan xatırladıb ki, Ermənistan üçün əsas KTMT-dən olan həmkarların dolayı yolla, lakin aydın məsuliyyət sahəsini tanımalarıdır. ”Bu bir qədər problemlidir” deyə bildirib. Cavabında Lavrov eşitdiklərindən razı qaldığını bildirib. O xatırladıb ki, KTMT xarici işlər nazirləri tərəfindən layihənin yaradılmasına xeyli saatlar ayrılıb. ”Məsələ ondadır ki, dövlət və hökumət başçıları öz imzalarını atsınlar. KTMT buna hazırdır. Mən şadam ki, Ermənistan fürsətdən yararlanmağı düşünür, bu, regionun təhlükəsizlik maraqlarına cavab verir”, - Lavrov bildirib.



Eyni zamanda, siyasi müşahidəçi David Petrosyanın dediyi kimi, Avrasiya İqtisadi İttifaqı (AİI) çərçivəsində müttəfiqlər arasında tam qarşılıqlı anlaşmanın olduğu daha aydın görünür: ”Ümumiyyətlə, ikitərəfli münasibətlərdə vəziyyətin idealdan uzaq olduğu, bir çox problemlər yığıldığı göz qabağındadır, lakin başqa bir şey də göz qabağındadır - tərəflər daimi əlaqə saxlayır və ziddiyyətləri aradan qaldırmaq və daha sıx qarşılıqlı fəaliyyətə keçmək niyyətindədirlər”.

Onun sözlərinə görə, Qarabağ ətrafındakı vəziyyətlə bağlı tərəflər 2020-ci il noyabrın 9-dan başlayaraq dövlət başçılarının bütün üçtərəfli bəyanatlarına sadiq olduqlarını bir daha təsdiqləyiblər. ”Bununla bağlı Mirzoyan Azərbaycanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi və güc tətbiqi praktikasını və ritorikasını dayandırması üçün Ermənistanın müttəfiqləri və tərəfdaşları tərəfindən fəal addımların atılmasının vacibliyini vurğulayıb. Laçın yolunun tam olaraq açılması məsələsi də diqqət mərkəzində olub. Amma Bakının bu məsələdə mövqeyi sərtdir və indiyədək heç bir təzyiqə boyun əyməyib. Digər şeylər arasında o, BMT məhkəməsinin müvafiq qərarını yerinə yetirməkdən imtina edir”, - David Petrosyan bildirib.

Politoloq Armen Xanbabyanın verdiyi məlumata görə, Ararat Mirzoyanın uzun fasilədən sonra Moskvaya səfəri zamanı bir çox gözləntilərin əksinə olaraq Qarabağ probleminin həlli ilə bağlı yanaşmalarına Moskvadan ciddi dəstək alıb. ”Sergey Lavrov Paşinyana istinad edərək deyib ki, Rusiya bütün məsələlərlə bağlı yanaşmanı bölüşür. Ermənilərin Qarabağda qalmasının gələcək statusu Azərbaycan hakimiyyəti ilə Xankəndidəki erməni icmasının nümayəndələri arasında birbaşa əlaqədə inkişaf etdirilməlidir”, - ekspert qeyd edib.









Bu, Rusiyaya tam uyğun gələn bu yanaşmadır. Təsadüfi deyil ki, Sergey Lavrov Kosovo serbləri və Donbassdakı rus azlığı məsələsində tətbiq edilməli olan işlənmiş metodlara istinad edib. Lakin bununla belə, rusiyalı nazir vurğulayıb ki, bu razılaşmalar yerinə yetirilməyib, ona görə də tərəflər Rusiyaya arxalanmalıdır. Üstəlik, Lavrov vurğulayıb ki, Moskvanın Qərblə Cənubi Qafqazın problemlərindən danışmağa nə həvəsi, nə də mənası var.

"Moskvanın kəskin ritorikasına baxmayaraq, görünür, Qərb tərəfdaşları Cənubi Qafqaz regionunda, xüsusən də Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin bağlanması məsələsində fəallıqlarını azaltmaq niyyətində deyillər", - Petrosyan hesab edir.

Mirzoyanın Moskvaya səfəri zamanı ABŞ dövlət katibi Entoni Blinkenlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında telefon danışığı olub. Ancaq burada bir nüans var. Blinken və Paşinyan o qədər də Qarabağdan, o qədər də Laçın yolunun "blokada"sından deyil, ümumilikdə Ermənistan-Azərbaycan barışıq prosesi və Amerikanın yardım göstərməyə çalışdığı gələcək sülh müqaviləsinin bağlanmasından danışıblar. ABŞ rəsmiləri bildiriblər ki, Blinken baş nazir Paşinyana Ermənistanın sülhə davamlı öhdəliyinə görə təşəkkür edib və həll olunmamış problemlərin həlli üçün konkret addımlar atmağa çağırıb.

David Petrosyanın sözlərinə görə, Qarabağ nizamlanması və Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin bağlanması məsələsində siyasi-diplomatik rəqabət qalmaqdadır. Bundan əlavə, Petrosyanın vurğuladığı kimi, İrəvanla Bakı arasında sülh müqaviləsi məsələsində kifayət qədər fikir ayrılığı var. Prezident İlham Əliyevin son bəyanatı da bunu sübut edir ki, Ermənistan Azərbaycanın şərtlərini qəbul etməsə, öz ərazisində dinc yaşaya bilməyəcək. Buna cavab olaraq Mirzoyan Moskvada qeyd edib ki, İrəvanın mövqeyi dəyişməz olaraq qalır - qərarlar yalnız danışıqlar yolu ilə əldə edilə bilər. Ermənistan həmçinin gələcək barışıq, regionda kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası ilə bağlı liderlərin bütün üçtərəfli bəyanatlarına sadiq qalır.

Erməni politoloqların fikrincə, Laçın dəhlizində Rusiya sülhməramlılarının laqeyd mövqeyi ucbatından Ermənistanda yayılmağa başlayan müəyyən anti-Kreml əhval-ruhiyyəsinin azalma ehtimalı olduğundan, işlərin bundan sonra necə gedəcəyini söyləmək çətindir. Ermənistan ictimaiyyəti düşünür ki, Rusiya erməni əhalisinin Qarabağda daha da qalması və Bakının mövqeyindən fərqli olaraq ermənilərə müəyyən statusun verilməsi məsələsinə çox müsbət yanaşır. Baxmayaraq ki, bəzi erməni müşahidəçiləri artıq deyirlər ki, Rusiya faktiki olaraq Qarabağın Azərbaycanın tərkibində olmasını təsdiqləyir, amma eyni zamanda müəyyən müstəqillik səviyyəsinə və bu regionda bundan sonra da yaşamaq zəmanətinə malik.

Əgər Rusiya məhz belə bir planı həyata keçirməyə başlayıbsa, bu, əslində o deməkdir ki, o, sülhməramlı kontingentini Qarabağdan çıxarmaq niyyətində deyil. Aydındır ki, yuxarıda qeyd etdiyimiz belə ideal vəziyyətə bir gecədə nail olmaq mümkün deyil. Bu çox uzun və çox mürəkkəb prosesdir. Bütün bu müddət ərzində Rusiya sülhməramlıları Qarabağın ermənilər yaşayan hissəsinin toxunulmazlığını və onun inkişafını təmin etmək üçün iş aparacaqları gözlənilir. Rusiyanın Qarabağı tərk edəcəyini və ya ermənilərə xəyanət edəcəklərini indidən söyləmək tezdir. Dedik axı, siyasətin səkkiz üzü var...

***V.VƏLİYEV***

# "Biz haqqımız uğrunda mübarizə aparırıq"

"Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təmin edilməsi, Azərbaycan-Ermənistan münasibətlərinin yaxşılaşdırılması, sülh müqaviləsinin imzalanması, sərhədlərimizin müəyyənləşdirilməsi region, ilk növbədə siyasi-iqtisadi böhran içərisində olan Ermənistan üçün çox vacibdir". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.





**KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ**

Komitə sədri qeyd edib ki, ötən 28 aydan artıq müddət ərzində Moskvada, Soçidə, Brüsseldə və Praqada siyasi nizamlanma, sülh məqsədilə keçirilən yüksək səviyyəli danışıqlara baxmayaraq, Ermənistan yenə də sülh sazişinin imzalanması üçün qəti qərara gəlməmişdir.

"Paşinyan başda olmaqla bir çox erməni siyasətçilər, rəhbərlər keçmişin şirin xülyası ilə yaşayır, Qarabağ torpaqlarına sahib olmaq üçün müxtəlif yollar axtarır və ən çirkin əməllərdən çəkinmirlər. Onlar Qarabağda olan erməni separatçılarını yenidən silahlandırmağa, münaqişəni qızışdırmağa çalışırlar. Azərbaycan Qarabağda yaşayan erməni icmasının üzvləri ilə danışıqlara üstünlük verdiyi halda, ermənilər ərazilərimizdə öz mövqelərini möhkəmləndirmək üçün yeni postlar, mühəndis-istehkam qurğuları yaradır, silahlanmaya can atırlar. Əyri yollarla Qarabağa silah gətirilir, torpaqlarımıza minalar basdırılır, mövqelərimiz atəşə tutulur.

Qarabağ bölgəsində 10 minlik şəxsi heyətin qalması və onların Ermənistan tərəfindən silah-sursatla təmin edilməsi əlbəttə ki, təhlükəsizliyimizə maneədir. Bu silah-sursat bilavasitə Rusiya sülhməramlıları dəstəyi və nəzarəti altında bölgəyə gətirilmişdir ki, bu da imzalanmış bəyanatların tələblərinə tamamilə ziddir. Çox təəssüflər olsun ki, Ermənistan rəhbərləri 44 günlük müharibənin acı nəticələrində və düşdükləri böhranlı vəziyyətdən hələ də nəticə çıxarmaq fikrində deyillər. Laçın dəhlizi ilə silahların daşınması və revanş götürmək cəhdləri bunun sübutudur.

Ölkə ərazisində suverenliyin tam bərpa edilməsi Azərbaycanın haqqıdır və xalqımız bunun üçün mübarizədən heç vaxt çəkinməyəcəkdir. Laçın rayonunda bütün yolların nəzarətə götürülməsi və nəzarət buraxılış məntəqəsinin qurulması bu günümüzün tələbidir. Beynəlxalq hüquq və mövcud vəziyyət bunu tələb edir", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***



**Lalə Mehralı**

# Ət festivalı

**Zaman o zamandır ki, hər kəs yaxın-uzaq qohumun toyuna getməyi özünə borc hesab edir. Elə toy sahibləri də yaxşı tanımadıqları, get-gəli belə olmadığı şəxsləri məclisinə dəvət edir. Hətta "Facebook"dan tanıdığım, ən ucqar rayonlardan olan insanlar toyuna dəvət edir. Nə bir-birimizi görmüşük, nə çörək kəsmişik, nə də bir qohumluğumuz var, sadəcə, bir-birimizin "friend list"ində varıq.**

Toy deyəndə elə bil başıma daş düşür. Qınamayın, bu toylar o bildiyimiz toylardan deyil axı, elə bil bazardır, ət yeməkləri festivalıdır. Əgər ev sahibi ət festivalını nümayiş etdirmək istəyirsə o zaman bunun adını niyə toy qoyur? Desin ki, ay camaat, ətlərin növbənöv görünüşdə xüsusi festivalını təşkil edirəm, gəlin iştirak edin, hərəyə 100 manat da siyahı yazılın. Azərbaycanda toy anlayışı bunlardan ibarətdir.

Toyun əsas mahiyyəti nədir? Əlbəttə ki, iki şəxsin xoşbəxt ailə həyatı qurması üçün birləşmələri. Buna görə düşünürəm ki, insanın belə əziz gününə, yalnız sevdiyi və dəyər verdiyi şəxslər toplaşmalıdır. Amma indi toyda it yiyəsini tanımır, ev sahibi isə heç birini. Toydan 3 gün sonra da məclisin səs-küyü beynimizdən çıxmır, akustik standart yoxdur axı. Bütün bunları nəzərə alaraq illərdir toylara getməkdən imtina etmişəm. Kim inciyir incisin, mənim sağlamlığım sərxoşların balladasından, tamadanın boşboğazlığından, oğlan evinin qızıl nümayişindən daha vacibdir.

Toyların bu qədər dəbdəbə ilə keçirilməsində "qonşudan geri qalmamaq" məsələnin də mühüm rolu var. Hər kəs dəbdəbə ilə övladına toy edən qohum-əqrəbası, ya qonşusuna baxaraq "ondan əskik kişinin övladı deyiləm ki" deyə düşünməklə balasına daha da möhtəşəm formada toy etməyi qərara alır. İndi bizdə belə bir düşüncə var ki, vaxtı ilə kiminsə siyahısına ad yazdırmışıqsa sabah onu toyumuza mütləq dəvət etməliyik. Ölkəmizdə toy anlayışı bu mahiyyəti daşıyır.

Çox yox, bir neçə onillik öncələrə nəzər salsaq o dövrdə keçirilən toy mərasimlərində hazırkı dəbdəbənin olmadığını görərdik. O zaman qohum-əqrəbalar yığışaraq gənclərə lazım olan ev əşyalarını alır, biri döşək salır, digərləri bəy-gəlin geyimi və başqa lazımlı şeylər alırdı. Sovet hakimiyyətindən öncə də bu ənənə olub. O zamanlar hərə bir materialın pulunu üzərinə götürməklə yeni ailə həyatı quracaq cütlük üçün ev tikirdilər. Evlənmək sözü də bu ənənədən bəhrələnir. İndiki dövrdə evlənmək ailə həyatı qurmaq mənasını daşıyır. Evlənmək toy edib, kirayələrdə sürünmək yox, ev qurmaq evlə təmin olunmaq deməkdir.

Müasir toylara bu qədər xərc qoymaq əvəzinə şəhərdə normal şəraitli bir mənzil də almaq olar. Elə müğənni var ki, bir saat toyda oxumağa 30-40 min alır. Onda günah yoxdur, günah bu qədər yetimi, internat evlərində boynunu bükən körpəsi, kasıbı-yoxsulu olan bir ölkədə adını yaza bilməyən, insanın dəyərini boyun-boğazındakı qızıl əşyalarla ölçən bir müğənniyə o qədər pul verən toy sahibindədir.

Hələ tamada müsibətini demirəm, toy qonaqlarının ən çox narazılığına səbəb olan amillərdən biri də tamadaların boşboğazlığıdır. Sözün həqiqi mənasında danışığını belə bilməyən tamadaların əlinə mikrofon alaraq dilini boğaza qoymaması bir çoxlarını cana yığır. Masabəyliyin özü bir məktəb, həm də milli mədəniyyətdir. Amma onların müasir versiyası ancaq tamada ola bilir.

Heç bir halda bu dəbdəbəli toyu edib söyüş sahibi olmağa dəyməz. Toy sahibi bilmir ki, toyuna gələn onu söyür? Bilir, çox gözəl bilir. Bilir ki, adambaşına görə baha olan restoranda toy etmək qonaqların xeyir-duasını yox, qarğışını almaq deməkdir. Çünki menyusu 150 manatlıq olan toya hər kəs 150 manat sala bilmir.

Komsomol toyu edin, vallah, ən gözəli odur. Toy səbəbkarlarının dostları, ən yaxın qohumlar - əsl toy budur. Nə söyüş sahibi olun, nə də borcda qalın.

TƏHLİL / VİDEO

# APREL DÖYÜŞLƏRİ:
## ZƏFƏR YÜRÜŞÜNÜN İLK ADDIMLARI




**Yeddi il öncə dünya ictimaiyyəti Cənubi Qafqazda işğala məruz qalmış qüdrətli dövlətlə işğalçı ölkənin silahlı birləşmələrinin qarşı-qarşıya gəldiyi "dördgünlük müharibə"yə - APREL DÖYÜŞLƏRİNƏ şahidlik etdi. Bu hərbi konfrantasiya bir çox məqamları yenidən aşkar etməklə bəzi reallıqlara bir daha aydınlıq gətirdi:**

ƏVVƏLA, aprel döyüşləri Azərbaycanın işğal faktı və status-kvo ilə barışmaq niyyətində olmadığını nümayiş etdirdi: Ermənistan rəhbərliyi həmin dövrdə cəbhə xəttində növbəti təxribat törədərək vəziyyəti gərginləşdirməklə Azərbaycanın diplomatik uğurlarını və beynəlxalq aləmin münaqişənin ədalətli həlli ilə bağlı qəti mövqeyini neytrallaşdırmağa çalışdı. Lakin Azərbaycan Ordusunun bu təxribatların qarşısını alması, nəticədə Ermənistan silahlı qüvvələrinin 200-ə yaxın hərbçi, çoxsaylı texnika itirməsi, 2000 hektara yaxın ərazinin, o cümlədən Lələtəpə və Talış yüksəkliklərinin geri qaytarılması Ermənistanın niyyətlərinin iflasla nəticələnməsini şərtləndirdi. Aprel döyüşləri həm də status-kvonun qəbuledilməzliyini qətiyyətlə ifadə edən Azərbaycanın Ermənistanın təxribatlarına dözmək niyyətində olmadığını və düşmənə layiqli cavab vermək əzmi və iqtidarında olduğunu göstərdi!

İKİNCİSİ, Azərbaycan Ordusunun aprel qələbəsi həm də beynəlxalq ictimaiyyət tərəfindən münaqişənin həlli məsələsinə adekvat yanaşmanın ortaya qoyulmasını şərtləndirdi: aprel döyüşlərindən sonra ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatların nümayəndələri, rəsmilər Ermənistanın təxribatçı hərəkətlərinə son qoyulmasının və münaqişənin beynəlxalq hüquq normalarına əsasən həllinin zəruriliyini bəyan etdilər;

ÜÇÜNCÜSÜ, 2016-cı ilin aprelindən sonra beynəlxalq ictimaiyyət bir daha anladı ki, Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi nəticəsində yaranmış münaqişə regional təhlükəsizliyə ciddi təhdidlər yaradır. Ona görə də bu problemin həlli beynəlxalq təhlükəsizliyin diktə etdiyi zərurətdir və münaqişə nə qədər ki ədalətli şəkildə həll edilməyib, regionda bütövlükdə sülh və sabitlikdən bəhs etməyə dəyməz. Çünki ərazi iddialarının, təcavüz faktının və separatizmin mövcud olduğu məkan və şəraitdə qarşılıqlı maraqlara söykənən əməkdaşlıq niyyətlərini istənilən səviyyədə reallaşdırmaq qeyri-mümkündür;

DÖRDÜNCÜSÜ, aprel döyüşləri erməni təbliğat maşınının Ermənistan ordusunun gücü haqqında formalaşdırdığı mifi dağıtdı: bu ölkənin hərbi-siyasi dairələrinin bir sıra nümayəndələri mövcud hakimiyyətin işğalçılıq siyasətindən imtina etməsini yeganə çıxış yolu kimi göstərdilər. Yəni 2016-cı ilin aprel döyüşlərinin nəticələri Ermənistanda ideoloji əsasları dağıtmaqla yanaşı, bu ölkənin işğalçılıq siyasətindən əl çəkməsinin zəruriliyini bir daha nümayiş etdirdi.

BEŞİNCİSİ, aprel döyüşləri torpaqlarımızın işğaldan azad olunması prosesinin başlanğıcı, şanlı hərb salnaməsinə düşən zəfərdir. Bundan 4 il sonra Azərbaycan Silahlı Qüvvələri 44 günlük Vətən müharibəsində tarixi qələbə qazanaraq ölkəmizin ərazi bütövlüyünün bərpasına nail olmaqla yeni zəfər salnaməsi yaratdı.

# Ətraf mühitin sağlamlaşdırılması naminə

### "Heydər Əliyev İli" çərçivəsində YAP-ın yerli təşkilatları ağacəkmə kampaniyasını davam etdirir

"Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) rayon və şəhər təşkilatları ağacəkmə kampaniyası həyata keçirirlər. Kampaniya çərçivəsində növbəti tədbirlər partiyanın İmişli, Oğuz, Abşeron, Şirvan, Xocalı, Ağstafa, Xızı, Quba, Lerik, Şuşa və Tovuz rayon təşkilatlarının yerli icra hakimiyyəti orqanları ilə birgə təşkilatçılığı əsasında keçirilib. Tədbirlərdə YAP-ın yerli təşkilatlarının rəhbərləri, partiya fəalları və ictimaiyyət nümayəndələri iştirak ediblər.





Eldar şamı, çinar, sərv, cökə, göyrüc, zeytun olmaqla ümumilikdə 4000-ə yaxın müxtəlif növ ağac əkilib. Eyni zamanda, ağacların əkildiyi ərazilərdə təmizlik işləri aparılıb, ağaclara aqrotexniki qulluq göstərilib.

Qeyd edək ki, aksiyanın keçirilməsində məqsəd ölkədə ekologiyanın qorunması və ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük əhəmiyyət vermiş ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələri davam etdirmək, insanlar arasında ekoloji mədəniyyəti və təbiətə qayğı hissini təbliğ etməkdən ibarətdir.



# "Fransa danışıqlar prosesindən birmənalı olaraq təcrid olunub"

"Məlum olduğu kimi, martın 16-da Fransa Senatı növbəti dəfə ölkəmizə qarşı təxribata əl atıb, dövlətimizin suverenliyi və ərazi bütövlüyünə yönəlmiş qondarma konfrans keçirib, Azərbaycana qarşı nifrət və qərəz dolu mövqeyini bir daha nümayiş etdirib". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Kamran Bayramov bildirib.

Onun sözlərinə görə, 44 günlük Vətən Müharibəsindən sonra Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, sülh müqaviləsinin imzalanması, Qarabağ bölgəsinin etnik erməni sakinləri ilə təmasların qurulması istiqamətində addımların atıldığı bir dövrdə Fransanın bu cür hərəkətləri sadalanan proseslərə birbaşa zərbə vurur, regionda gərginlik dərəcəsini artırır: "Onu da qeyd etmək lazımdır ki, ötən ilin noyabrında Fransa ilə bağlı qəbul etdiyimiz bəyanatın mürəkkəbi qurumamış, bu ölkə öz hakimiyyətinin bütün qatlarında dövlətimizə qarşı qərəzli siyasətini davam etdirib. Belə ki, bir neçə gün öncə Fransa xarici işlər nazirinin Qarabağla bağlı səsləndirdiyi əsassız fikirlər, Overn-Ron-Alp bölgəsinin regional şurası sədrinin Ermənistana səfəri zamanı verdiyi bəyanatlar Fransanın anti-Azərbaycan mövqeyinin növbəti təzahürü və ölkəmizin daxili işlərinə müdaxilə cəhdi kimi qiymətləndirilməlidir.



Bu onu göstərir ki, Fransa hakimiyyəti Ermənistanın təcavüz və işğal siyasətinə haqq qazandırmağa çalışır, beynəlxalq hüquqa zidd olaraq kolonializm keçmişinin ətaləti əsasında hərəkət edir, reallıq hissini itirərək rəsmi Bakı ilə qarşıdurma yaratmaq niyyətindədir. Lakin, unudur ki, qarşısında öz gücü, qüdrəti və uzaqgörən siyasəti hesabına həm regionda, həm Avropada, həm də dünyada yüksək hörmət və nüfuz qazanmış Azərbaycandır, ərazi bütövlüyünü öz siyasi, diplomatik və hərbi səyləri hesabına bərpa etmiş dövlətdir.

Emmanuel Makron və onun hökuməti nəhayət anlamalıdır ki, Fransa danışıqlar prosesindən birmənalı olaraq təcrid olunub və ona təxribatçı damğası vurulub. Eyni zamanda dərk etməlidir ki, Fransanın Azərbaycanla ultimatum dilində danışması cəhdləri, Ermənistanı ölkəmizə qarşı hərbi təxribatlara hazırlaması, ona Avropadan hərtərəfli dəstəyin vəd etməsi avantüraları uğursuz olacaq və nəinki regionda, bütün dünyada olan-qalan nüfuzunun da itirilməsi ilə nəticələnəcək.

Çox təəssüf ki, Fransa kimi beynəlxalq münasibətlərdə çoxəsrlik təcrübəyə malik olan bir ölkənin bu cür impulsiv, məntiqə sığmayan siyasəti, bəyanatları, və hərəkətləri hazırkı hökumətinin adekvatlığına əsaslı və haqlı şübhələrimizi təsdiqləyir.

Hesab edirəm ki, suveren dövlətin işinə qarışmamağı, bununla bağlı regionumuzda macəra axtarmamağı, əvəzində öz başından aşıb-daşan daxili problemləri ilə məşğul olmağı Fransaya ciddi tövsiyə edilməli, əks halda, bu ölkə ilə mövcud olan münasibətlər yalnız diplomatik əlaqələr səviyyəsinə endirilməlidir".

# Himayədən

## MƏHRUMİYYƏTLƏ UZLƏŞMƏ

***Dağılmaqda olan bir ölkə, özü də işğalçılığı, talançılığı dövlət siyasəti hesab edən ölkə üçün bu zamana qədər gördükləri himayədən məhrum olmağın nə demək olduğunu ağlı başında olan hər bir erməni başa düşməlidir. Ermənistanın bu gününü, eləcə də gələcəyini Rusiyasız görməyən ermənilərin sayı da günü-gündən artır və bu da səbəbsiz deyil, əksinə, məntiqidir. Onların böyük əksəriyyəti yenə də böyük rus qardaşlarının ayaqları altına yıxılmaq üçün əldən-ayaqdan gedirlər.***



Müstəqillik, yaxud da suverenlik anlayışı işğalçı ölkədə sonuncu yerdədir, desək yanılmarıq. Artıq ermənilər öz ölkələrinin müstəqil olaraq qalacağına da, gələcəyinə də inanmırlar və ölkələrini bir daha Rusiyanın tabeçiliyinə atmaq üçün tərəddüd etməyənlər azlıq təşkil etmir. Doğrudur, bu, erməni xislətinin, vətənsiz insanların xislətinin təzahürü kimi təəccüb doğurmur, amma istənilən bir ölkə vətəndaşı üçün çox iyrənc, ən azından utancverici sayılır. Məsələ burasındadır ki, son zamanlar Qərbin ayaqları altına sərilən haylar bunun nəticəsini görə bilmədilər və onları himayə etmək niyyətinin olmadığını gördülər. Gördülər ki, Qərb ancaq boş vədlər verir və qondarma demokratiya sözü ilə erməniləri aldadır, çünki demokratiyadan da bu ölkədə söhbət gedə bilməz. Demokratiya bəhanəsi ilə də həmin ölkə sadəcə marionet olaraq idarə olunur, Qərbin məqsədləri, oyunları üçün alət edilir. Ölkələri sıxıntı içərisində olanda isə Qərbin heç bir dəstək göstərmədiyini də görmələri əslində, himayədən məhrum olmaları demək idi, indi bununla təkcə rəsmi İrəvan deyil, dünyanın bütün erməniləri üzləşdiklərinin fərqindədirlər.


© Getty Images/AFP/K. Minasyan

Ukrayna ilə müharibə vəziyyətində olan Rusiyaya qarşı mövqe sərgiləyən ermənilər düşünürlər ki, Qərblə bir sırada durmaq Ermənistana hər zamankindən daha çox indi lazımdır. Amma belə düşünənlər də hətta haqqın, ədalətin tərəfində olmaq üçün bu qənaətdə deyillər və onlar üçün Ukraynanın, ya da ukraynalıların haqlı mövqelərini müdafiə etmək zərrə qədər maraqlı deyil. Söhbət hansısa haqdan, ədalətdən getmir, belə bir mövqe sərgiləməkdə başqa səbəblər var və bu da yenə erməni simasızlığını ortaya qoyur. Bir tərəfdən Ermənistan cəmiyyətində Azərbaycanın haqq işinə, haqlı mübarizəsinə dəstək verən ukraynalılara qarşı bir nifrət hissi var, amma onlar üçün əsas məsələ yenə də özlərinə ağa axtarmaq, kimlərinsə kölgəsinə sığınmaq, himayə qazanmaqdır ki, bu məqamda da Qərb yönümlülük özünü göstərir. Bu, erməni hiyləgərliyidir və vəziyyətə görə yaltaqlanmaqdan başqa bir şey deyil. Rusların, Rusiyanın himayəsindən məhrum olmaq qorxusu yaşayan ermənilərin Qərbə meyilli olmaları da bundan qaynaqlanır, amma səyləri əbəs yerədir, çünki simaları, daha doğrusu simasızlıqları hər kəsə bəllidir. Bəllidir ki, haylar ancaq himayə olunmaq istəyi ilə belə mövqedədirlər, onlara bel bağlanılası deyil və bu səbəbdən də Qərb tərəfindən himayə barədə düşünülmür də heç. Bu səbəbdən də Ermənistan cəmiyyətinin həyəcan keçirdiyi aydın şəkildə görünür.

Bəli, rəsmi İrəvan indiyə qədər hiyləgərcəsinə iki cəbhə arasında müvazinətini saxlamağı, manipulyasiya etməyi bacarır. Ermənistan bir tərəfdən Rusiyanın Avropa Şurasından çıxarılmasının əleyhinə səs verir, digər tərəfdən isə, Rusiyanın başlatdığı müharibəyə dəstəyi guya ifadə etmək istəmir. Halbuki, Ukrayna ərazisində əsir düşən Rusiya hərbçiləri arasında ermənilərin də olduğu bəlli olur. Etiraf edilməlidir ki, mövcud şərtlər daxilində bu, mümkün olan maksimum simasızlıq, ikiüzlülükdür. İndi ermənilər Rusiyanı qəzəbləndirməmək və Qərbi özündən uzaqlaşdırmamaq üçün sifətdən sifətə düşür, dondan dona girirlər. Bunu təkcə erməni cəmiyyətində müşahidə etmirik və bütövlükdə Ermənistanın bir dövlət olaraq siyasətində ikiüzlülük hər an özünü göstərir və ermənilərin indiyə qədərki hakimiyyətlərinin hamısı bu məsələdə eyni şəkildə simasızlıq edib ki, haradasa kölgələnə, himayə oluna bilsinlər. Bunu görməmək, nəzərdən qaçırmaq mümkün deyil və heç şübhəsiz ki, Qərb də Rusiya da həmin simasızlığın fərqindədir. Elə ona görə də himayədən məhrumiyyətlə üzləşmək artıq ermənilərin arzulamadıqları reallıqdır.

”Rusiyasız Ermənistanın gələcəyi yoxdur”, ”Rusiya sizinlədir”, ”Rusiya və Ermənistan əbədi olaraq qardaşdırlar” şüarları səsləndirərək meydanlara toplaşan aksiya iştirakçıları öz ölkələrinin müqəddəratını bu ölkəni Rusiyanın ayaqları altında atmaqla həll etməkdə görürlər, çünki gələcəklərinə, müstəqil olaraq, suveren olaraq mövcudluqlarına inanmırlar. Yəni himayəsiz mövcudluqlarına özləri də şübhə edirlər. Bu mənada haqlıdırlar da. İnsanların öz ölkələrinin müstəqil gələcəyinə inanmamaları, ümidsizlik girdabına düşmələri, bunun fonunda da müstəqilliklərindən əl üzmələri, öz ölkələrini yenə də boyunduruq altına atmaları, hətta niyyət olaraq belə, həddindən artıq utancverici bir niyyətdir. Hazırda Azərbaycanın qüdrətli dövlət olması və bunun qarşısında ermənilərin qondarma dövlətlərinin dayana bilməməsi qorxusu ən ali məqam hesab olunan suverenlikdən əl çəkmək kimi iyrənc əmələ belə əl atmağa, öz köhnə simasızlıqlarını bir daha təkrarlamağa erməniləri sövq edir. Bu, əlbəttə ki, Rusiya himayəsindən məhrumiyyət, eləcə də Qərb himayəsinə əl çatmamaq qorxusudur və bu qorxunu yaşayanlar öz ənənələrinə uyğun olaraq simasızlıqlarını ortaya qoymaqdan belə çəkinmirlər.

Təbii ki, bu biabırçı ikiüzlülüyə və tayı-bərabəri olmayan simasızlığa Qərb tezliklə reaksiya verəcək. Həmin anda belə ermənilərin Qərbə meyl edəcəklərini kimsə təkzib edə bilməz, çünki bu simasızlıqları ilə dəfələrlə rastlaşılıb. Bir sözlə, Rusiyanın mövqeyini gah dəstəkləmək, gah da bunun əleyhinə olmaq ermənilər üçün adi hal sayılır, hansı ki, bu bir hekayə, nağıl deyil, sərgilənən mövqedir, ermənilərin mövqeyidir, daha doğrusu mövqesizliyidir. Sözsüz ki, ermənilərin bu mövqesizliyi Qərb tərəfindən cavabsız da qalmayacaq, hansıki bunu ermənilər yaxşı bilirlər. Amma hər bir halda yenə də bərk ayaqda rusların ətəyindən tutmaq ənənəsi erməniləri birləşdirən vasitədir və buna öyrəncəlidirlər. Çünki, Rusiya himayəsindən məhrumiyyət qorxusu yaşayırlar və bu himayədən məhrum olduqları zaman yox olacaqları qənaətindədirlər. Məsələ burasındadır ki, bütün dünya nəinki ermənilərin simasızlıqlarının növbəti dəfə şahidi oldu, həm də onun şahidi oldu ki, onlar daim kimlərinsə, hansısa dövlətlərin kölgəsi altında kölgələnmək, gizlənmək kimi hiyləgər ənənələrinə sadiqdirlər. Dünya ölkələri bir daha şahidi oldular və əmin oldular ki, haylar öz münasibətlərini maddi və digər imkanlara görə qururlar. Lakin bir məsələni unudurlar ki, istər Qərb olsun, istərsə də Rusiya, artıq ermənilərin simasızlığına şübhələri qalmayıb.

Real mənzərə göz önündədir. Görünən odur ki, haylar artıq himayədən məhrum olmaqdadırlar. Qərb umumiyyətlə, inanmır ermənilərə, onların simasızlıq dərəcəsinə gərə. Belə görünür ki, Qərb erməniləri həvəsləndirsə belə arxalarında durmaq niyyətində deyil. Yəni, Qərbin hayları himayəsi altına alacağına inanmaq, bunun mümkün olacağına ümid etmək mümkün olan iş deyil. Bir tərəfdən də Rusiya artıq ermənilərin bütün simasızlıqlarını açıq-aydın şəkildə gördü. Deməli, Rusiyanın da haylara himayədarlıq edəcəyi hələlik sual altındadır.

***İnam Hacıyev***

# Azerconnect Azərbaycanda ən yaxşı işəgötürən şirkət seçilib

Azerconnect şirkəti dünyanın nüfuzlu ”Top Employer Institute” (Ən Yaxşı İşəgötürənlər İnstitutu) tərəfindən 2023-cü il üzrə Azərbaycanda ”Ən Yaxşı İşəgötürən” şirkət sertifikatına layiq görülüb. ”Top Employer İnstitute” tərəfindən 2023-cü il üzrə Azərbaycanda bu nüfuzlu mükafata sahib olmaq şirkətin iş dünyasına daha yaxşı bağlılığını, eləcə də şirkətdə insan resurları siyasəti və təcrübəsinin mükəmməl tətbiqini göstərir. Azerconnect şirkəti ”Top Employer İnstitute” tərəfindən insan resursları sahəsində biznes və insan strategiyası, iş mühiti, istedadların cəlb edilməsi, öyrənmə, müxtəliflik, bərabərlik və inklüzivlik, rifah və sair daxil olmaqla 20 sahədən ibarət 6 istiqamət üzrə qiymətləndirib və mükafata layiq görülüb.

”İnsan kapitalının idarə edilməsi üzrə ən son yeniliklərin tətbiqi sayəsində öz biznes fəaliyyətimizdə xeyli uğurlara nail olmuş və ölkəmizdə bir sıra yeniliklərə imza atmışıq. Şirkətimizin daha yaxşı iş yerinə çevrilməsi istiqamətində göstərdiyimiz səylərin ”Top Employer Institute” tərəfindən də qiymətləndirilməsi və nüfuzlu mükafata layiq görülməyimizdən məmnunam”, - deyə Azerconnect şirkətinin Baş Direktoru Emil Məsimov qeyd edib.

”Azerconnect şirkəti olaraq İnsan Resursları sahəsində yüksək standartların tətbiqi, əməkdaşlarımıza layiqli iş şəraitinin təmin edilməsi istiqamətində ən yaxşı təcrübələri icra edirik. Bunun üçün biz çevik iş şəraiti, peşəkar inkişaf, karyera imkanları, inklüziv iş mühiti, liderlik və digər proqramlar ilə əməkdaşlarımızın davamlı inkişafına töhfə vermək istiqamətində çalışırıq. ”Top Employer Institute” tərəfindən Azərbaycanda ən yaxşı işəgötürən şirkət olaraq seçildiyimiz üçün qürur hissi keçiririk. Bu sertifikat Azerconnect olaraq fəaliyyətimizin ən yaxşı beynəlxalq təcrübələrə əsaslandığının göstəricisidir”, - deyə Azerconnect şirkətinin İnsan Resursları üzrə Baş Müdiri Mətanət Babayeva bildirib.




”Müstəsna zamanlar insanlarda və təşkilatlarda ən yaxşıları ortaya çıxarır. Biz bu il Ən Yaxşı İşəgötürənlərin Sertifikatlaşdırma proqramımızda bunun şahidi olduq. İnsan Resursları sahəsində mükəmməl strategiyası, siyasəti və təcrübələri ilə Azerconnect şirkəti işçilər üçün daha yaxşı iş yerinin yaradılmasına sadiq olduğunu, eləcə də əməkdaşların inkişafı və rifahının şirkət üçün prioritet olduğunu nümayiş etdirir. Bununla onlar kollektiv şəkildə iş dünyasını zənginləşdirirlər. Biz bu ilki aparıcı insan yönümlü işəgötürən şirkətlərin qrupunu elan etməkdən qürur hissi duyuruq”, - deyə Top Employer Institutunun Baş Direktoru David Plink qeyd edib.

# “Düşmən yenidən cəzalana bilər”

*Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Anar Xəlilovun "Səs" qəzetinə müsahibəsi*

***- Anar müəllim, Paşinyanın arvadı etiraf edib ki, Vətən müharibəsi dövründə Ermənistan ordusunun 25 faizi, yəni 11 min nəfəri fərari olub, döyüşlərdən qaçıb. Bu, bir daha Ermənistan əsgərlərinin Azərbaycanın ordusu qarşısında aciz durumda olduğunu və ölməmək üçün fərariliyə üstünlük verdiklərinin təsdiqi sayıla bilər?***



- Ermənistanın baş nazıri Paşinyanın həyat yoldaşı Anna Akopyan Açakurt kəndində çıxışı zamanı 44 günlük müharibə zamanı Ermənistan ordusunda 11 min fəraririnin olduğunu açıqlayıb. Bu, çox ciddi faktdır və bir daha o dövrdə işğalçı Ermənistan ordusunun necə bir rəzil vəziyyətə düşdüyünü fakt olaraq təsdiqləyir. Əsas da odur ki, bunu ölkənin baş nazirinin həyat yoldaşı söyləyir və ordunun fərrari vəziyyətinə düşdüyünü etiraf edir. Eyni zamanda, bunu söyləməklə Azərbaycan ordusunun gücünü bəyan etmiş olur. Əslində, 44 günlük müharibə dövründə Ermənistan ordusu deyilən bir ordu qalmamışdı. Döyüşlərin elə ilk günlərindən onların 28 il ərzində yaratdığı və öyündükləri müdafiə xətti bir neçə saatın içində ordumuz tərəfindən yarıldı. Artıq bununla da onlar Azərbaycan ordusunun gücünü gördülər və təbii ki, yalnız qaçıb canlarını qurtarmaq haqqında düşünməli oldular. Şuşa uğrunda gedən döyüşlər isə hərb tariximizin qızıl səhifəsidir. Bu döyüşlərin Azərbaycan ordusu tərəfindən qələbə ilə başa çatması ilə Ermənistan ordusunun mövcudluğuna da son qoyuldu. Ötən dövr ərzində də heç nə dəyişməyib aldıqları zərbədən hələ də özlərinə gələ bilməyən Ermənistan ordusu demək olar ki, ad olaraq qalır. Yalnız havadarlarının ümidinə qalan Ermənistan yəqin ki, uzun illər aldıqları zərbədən və yaşadıqları qorxudan Azərbaycan ordusunun qarşısında durmağı yox qaçıb canlarını qurtarmağı düşünəcəklər.

***- 44 günlük Vətən müharibəsində Azərbaycan ordusundan bir nəfər də olsun fərari olmadı. Bu faktı Azərbaycan xalqının, ordusunun vətənə, dövlətə bağlılığının əyani sübutu hesab etmək olar?***

- 44 günlük Vətən müharibəsində Azərbaycan ordusu yalnız irəli getməyi və torpaqlarını azad etməyi düşünürdü. Azərbaycan əsgəri sinəsini irəli verib işğalçını qovmağı düşünərək şəhid olmağı şərəf bilirdi. Onun qarşısında xain, əclaf havadarlarının arxasında gizlənib özgəsinin torpağını mənimsəməyi düşünən bir şərəfsiz düşmənin olduğunu bilərək şərəflə döyüşürdü. Azərbaycan ordusunun başında güclü siyasətçi, bacarıqlı idarəçi, müasir Azərbaycan ordusunun qurucusu olan Ali Baş Komandan Cənab İlham Əliyev rəhbərlik edirdi. Azərbaycan əsgərinin arxasında onun xalqı dayanmışdı. Məhz buna görə də, Azərbaycan əsgəri qartal ancaq düşmənin üzərinə şığıyıb onu məhv edib qovmağı düşünürdü, bu yolda şəhid olmağı arzu edirdi ayrı düşüncəsi ola bilməzdi.

***- Müharibə dövründə çağırış məntəqələrinin qarşısında müharibəyə getmək üçün gənclərin uzun növbələri yaranmışdı. Bu kimi hallar gənclər arasında vətənpərvərlik ruhunun yüksək olmasından irəli gəldiyini demək olar?***

- Ölkədə Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi ilə dövlətçiliyimizin təməl prinsipləri yenidən qurulmağa başladı. Bu təməl prinsiplərindən əsası olan ordu quruculuğu ilə yanaşı, eyni zamanda, gənclərimizin hərbi vətənpərvərlik ruhunda böyüməsi və tərbiyyə alması priorotet ideya olaraq həyata keçirilməyə başladı. Cənab Prezident İlham Əliyev də bu iki istiqamətdə çox uğurlu və misilsiz bir siyasət həyata keçirərək güclü ordu və sağlam ruhlu vətənpərvər gəncliyin yetişməsinə nail oldu. Ölkədə aparılan Gənclər siyasətinin uğurlu nəticəsi, məhz 44 günlük müharibə dönəmində özünü daha da qabarıq surətdə təsdiq etdi. Çağırış məntəqələrinin qarşısında könüllü gənclərimizin növbəyə düzülməsi və torpaqlarımız uğrunda canlarından keçərək şəhid olması onların vətənə, dövlətə sevgi ruhunda tərbiyə almasının bariz nümunəsidir. Azərbaycan gəncliyi güclü ordumuzun vuran qoludu, Ali Baş Komandanın ” Dəmir yumruğunu” düşmənin başına endirən gücdür. Bunun kökündə Vətən sevgisi və aparılan siyasətin doğruluğu dayanır. Azərbaycan ordusunun qarşısında hələ çox düşmənlərimiz qaçıb fərrari adını qazanacaq. Allah şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə cansağlığı qismət etsin. Tanrı ordumuzu və Ali Baş Komandanımızı qorusun.

***GÜLYANƏ***



# Yaylıqlı kişilər

MƏTANƏT

**Yaylıqlı deyirəm, bu arada yaylıqdan üzr istəyirəm ki, onun adını bəzi kişilərlə birgə çəkirəm. Çünki yaylıq qadınlara məxsus geyimdir və elə qadınlarımız var ki, hünərdə, cəsarətdə, namusda, əxlaqda, vətənpərvərlikdə çox kişilər onun kölgəsində qalar. Amma nə məsələdirsə, kişi başına yaylıq bağlayanda hünərdən, namusdan, əxlaqdan, xüsusilə də vətənpərvərlikdən çox-çox uzaq qalır.**

Elə xalq arasında da özünə hörmət etməyən, necə deyərlər yerində olmayan kişilərə yaylıqlı və yaxud da filankəsin yaylığı başına, deyirlər. Bu günlərdə Milli Məclisin deputatı Fazil Mustafaya sui-qəsd edən dırnaqarası kişilər həmin o yaylıqlılardandır. Sən Azərbaycanda yaşa, bu ölkənin çörəyini ye, havasını ud, sonra da get başqasına satıl və öz vətəndaşını öldürməyə çalış.

Nəinki Fazil Mustafanın həyatına qıymaq istəyənlər, eləcə də bu günlər saxlanılan İrana casusluq edənlərin hər biri yaylıqlı kişilərdir. Çox güman ki, onların hər biri bu cinayətlərə addımlarını qoyandan başlarına yaylıq örtüblər ki, tanınmasınlar. Yaylıq altında, arxasında gizlənən, Vətənini satan, vətəndaşına sui-qəsddə iştirak edən, yəni buna razılıq verən ”kişilərdən” nə gözləmək olar?

Görəsən bu ”kişilərdə” utanmaq adında bir hiss varmı? Düşünürəm ki, əsla yoxdur. Yoxsa ətrafdakı düşmənlərin əhatəsindəki qalib ölkənin qürurla yaşayan insanları arasında çoxdan özlərini asıb öldürmüş olmalı idilər. Bizim övladlarımız getsin müharibədə qəhrəmanlıq göstərsin, şəhid olsun, evinə qazi kimi qayıtsın, biz torpaqlarımızı 30 ildən sonra azad edək, namusumuzu təmizləyək, bu ”kişilər” də getsin düşmənə silah satan molla rejiminə xidmət etsinlər, hələ üstəlik bizim vətəndaşımızı da kimlərinsə istəyi ilə susdurmağa çalışsınlar.

Həqiqətən ölmək çox halda o qədər gözəldir ki... Lakin nəsib ola da. Olmur axı. Belə yaylıqlı kişilər ki, o satqınlığa, Vətənə, millətə xəyanətə başlayırlar, elə o andaca ölüm gəlib onları yaxalasa, özü ilə aparsa, daha gözəl olmazdımı? İnanın ki, bunu onların vicdanı olan ailə üzvləri, qohum-əqrəbaları da arzulayar. Çünki onların bu biabırçı hərəkətləri ilə illərlə yaşamalı olacaqlar. Kimin övladıdır, Vətən xaininin, kimin qohumudur, satqının, kimin əqrəbasıdır, İrana casusluq edən filankəsin. Bu suallar və cavablar qarşısında isə ölüb-dirilmək məsələsi var.

Çox təəssüflər olsun, bu Vətənin çörəyi, havası, suyu belələrinə haram olsun. Görəsən hansı qarşılıq əsasında bu qədər rəzalətə əl atıb bu ”kişilər”? Nə qarşılıq ola bilər ki, sən Vətəndən, xalqdan, millətdən keçib, məxsus olduğun ölkənin sirrini kənara ötürəsən? Nə qarşılıq ola bilər ki, əlinə silah alıb, başına da yaylıq bağlayıb qapılarda saatlarla gözləyib öz vətəndaşına atəş açasan? Nə qarşılıq ola bilər ki, sənin içindən vicdanı, ar-namusu çıxarıb yerinə rəzalət doldura bilər? Nə?..

İndi o qarşılıqlar, xidmətində durduqlarınız sizi xilas edə biləcəkmi, ”kişilər”? Gördüyünüz rəzil işin qarşılığında aldıqlarınız sizə təmiz adınızı, namusunuzu, Vətənə sədaqət kimi ülvi duyğunu geri qaytara biləcəkmi? Əsla qaytarmayacaq, qaytara da bilməz. Çünki bu duyğular o qədər pak duyğulardır ki, onlar çirklənmiş adamlara qayıda bilməz.

Beləliklə yaylıqlı kişilər özləri üçün bu yolu seçdilər: casusluğu, xəyanəti, rəzilliyi. Bu rəzilliklə də yaşamalı olacaqlar. Günlərin birində isə əməllərinə görə peşman olacaqlarına şübhə etmirəm. Sözsüz bir gün qanacaqlar ki, səhv etmişik. Lakin onda gec olacaq. Çünki casus, xəyanətkar adını heç nə təmizləyə bilməz. Beləliklə ömür boyu yaylıq altında, arxasında gizlənməli olacaqlar bu ”kişilər”. Nə etməli, onların nəsibi papaq yox, yaylıq imiş...

TƏRS BAXIŞ + ÖZƏL



# Bakıdakı Qənimətlər parkından Nyu-Yorkdakı qanlı çəkmələrə baxarkən...

"Biz şəhərləri bombardmana məruz qoyduğumuz vaxtda bu, strateji məcburiyyətdir, ancaq bizim şəhərlərimiz bombardmanlara məruz qalanda bu, iyrənc cinayətdir"

### Erix Mariya Remarkın "Yaşamaq və ölmək vaxtıdır" romanından

Bugünlərdə Nyu-Yorkda Ukraynada həlak olan rus əsgər və zabitlərinin çəkmələrinin nümayişi sərgisi açılıb. Bir sıra Qərb mətbuatları sözügedən tədbiri geniş şəkildə işıqlandırıblar. İlk baxışdan burada təəccüblü hər hansı məqamın olduğu görünməsə də, bəzi düşüncələr mövzu ilə bağlı növbəti mənzərəni qabardır və istər-istəməz suallar yaranır. Misal üçün, Nyu-Yorkdakı sərgi barədə yazan xarici medialar həmin saytlar, informasiya agentlikləri və qəzetləridirlər ki, torpaqlarımızın erməni işğalından azad edilməsi ilə nəticələnən 44 günlük müharibədən sonra Bakıdakı Qənimətlər parkında nümayiş etdirilən düşmən hərbi texnikaları ilə bağlı çox güclü hay-küy qaldırmışdılar. Bəli, məhz texnikalara görə, həlak olmuş işğalçı düşmənin qanlı geyimləri və çəkmələri ilə bağlı deyil..!

### Məhz 21-ci əsrdə bu kimi təqdimatın - ölmüş əsgərlərin çəkmə təqdimatlarının baş verməsinə inanmaq çətindir

Məsələn, Britaniyanın The Guardian qəzeti Nyu-Yorkdakı sərgini entuziazm xarakterində şərh edərək onu ”rus işğalçılarının qənimət çəkmələri” kimi təqdim edib. Bəli, müharibədə həyatını itirən Rusiya hərbçiləri təmsil olunduqları ölkə rəhbərliyinin siyasi maraqları naminə, hətta belə deyək, heç nədən dünya ilə vidalaşıblar. Bu, təəssüf doğurur və müharibənin ölçüyəgəlməz acı həqiqətlərindəndir. Amma məhz 21-ci əsrdə bu kimi təqdimatın - ölmüş əsgərlərin çəkmə təqdimatlarının baş verməsinə inanmaq çətindir, amma fakt-faktdır....

Xatırlayırsınızsa, 44 günlük müharibədən sonra bir sıra ölkələr Azərbaycana qarşı az qala ultimatumlarla çıxış edərək bəyanatlar verdilər ki, Qənimətlər parkının yaradılması ”erməni cəmiyyətinin psixikasına pis təsir edir”.

### Məgər azərbaycanlıların psixikaları dəmirdən idi?

Üstəlik, Fransanın, İtaliyanın, ABŞ-ın KİV-ləri bu hadisəni guya Azərbaycanın ”qeyri-insani” addımları kimi yazırdılar. Halbuki, Azərbaycanın Qənimətlər parkında işğalçıların döyüş meydanında ataraq qaçdıqları hərbi texnikaları nümayiş olunmuşdu. Xalqın psixikasına təsir məsələsinə gəlincə, görəsən azərbaycanlılar öz yurdlarından qovularaq, öldürülərək, soyqırımları məruz qoyularaq pərən-pərən düşəndə, bütöv bir ailələr yer üzündən silinəndə həmin ifadə niyə yada düşmürdü?! Yoxsa ki, azərbaycanlıların psixikaları dəmirdən olub və kənar təsirlərə qarşı dözümlüymüş ???

### Bəs Nyu-Yorkda?

Müxtəlif qəlpə-güllə yaraları alaraq ölmüş insanların çəkmələri! Üstəlik, onların bəzilərinin üzərlərində qan izləri də qalmışdı. Maraqlıdır, Azərbaycanı hədəfə alan həmin medialar bu barədə yazacaqlarmı? Yazacaqlarmı ki, bu qeyri-insani davranışdır və humanizm baxımından yolverilməzdir? Yazacaqlarsa lap yaxşı, yox, yazmayacaqlarsa onda həqiqətən 21-ci əsrin meydan oxuduğu dövrdə də ikili standartların qaldığını əminliklə deyə bilərik.

Bu yerdə Erix Mariya Remarkın ”Yaşamaq və ölmək vaxtıdır” romanındakı sitatını sitatını xatırlamamaq olmur: ”Biz şəhərləri bombardmana məruz qoyduğumuz vaxtda bu, strateji məcburiyyətdir, ancaq bizim şəhərlərimiz bombardmanlara məruz qalanda bu, iyrənc cinayətdir”.

***Rövşən RƏSULOV***

# Hüsnxətsiz gələcək

**Hüsnxət sözünün mənası dilimizin izahlı lüğətində ibtidai məktəblərdə şagirdlərdə gözəl yazmaq vərdişləri aşılamaq üçün keçirilən tədris fənni kimi izah olunur. Hüsnxət həm də hər kəsin yiyələndiyi ilkin yazı yazmaq mədəniyyətidir. Elə bir mədəniyyət ki, onu sonrakı illərdə inkişaf etdirməklə böyük mədəniyyətə çevirmək olur.**

Hüsnxət adından da göründüyü kimi gözəl yazı yazmaq deməkdir. Eləcə də bizim özümüzün də hüsnü əlyazımızda əksini tapır, hüsnxətlə yola çıxdığımız yazı xəttimiz gələcəkdə xarakterimizi, xasiyyətimizi açıqlayır.

Bəli, hər birimiz ibtidai təhsil alırıq, hüsnxət fənnini tədris edən müəllimlər bizə yazmağı öyrədir. Biz də öyrənirik. Necə çətinliklə öyrənirik, bunu da hər kəs yaxşı xatırlayar. Xatırlayar ki, yazmağı öyrənmək üçün çox çətinlik çəkilir. Məktəbdə müəllimlərin, evdə isə valideynlərin köməkliyi ilə yavaş-yavaş buna alışırıq. Nöqtələri birləşdirməklə axır ki, hərfləri yazmağı öyrənirik ki, bir də baxırıq söz, cümlə yazmışıq. Lakin təəssüflər olsun ki, hazırki təhsil sistemində yuxarı siniflərə qalxdıqca yazı yazmaq elə ibtidai sinifdə qalır. Nə üçün yazmırıq? Bu barədə danışaq.

## Yeni təhsil metodları yazı yazmaq vərdişinə qarşıdır

Bəli, təhsilimiz kurikulum adlanan yeni təhsil metoduna keçdi keçmədi, bu metod yazı yazmağı sıradan çıxarmağa başladı. Elə ki, dərsliklərin yanında iş dəftərləri də meydana gəldi, hansı ki, o dəftərləri satın alırıq, bundan sonra yazı yazmaq məsələsi də geriləməyə başladı. Çünki həmin iş dəftərlərində çox qısa şəkildə yazıl yazmaq məcburiyyətində qalırıq. Bəzən yalnız "hə", "yox", "bəli", "xeyr". Vəssalam.

Əvvəlki təhsil sistemində necə idi? Nə üçün əvvəllər daha çox yazırdıq? Müəllim Azərbaycan dili fənnindən evə çalışma verirdi. Biz çalışmanı həll etmək üçün onu olduğu kimi dəftərə köçürürdük, sonra isə həllini yazırdıq. Ədəbiyyat fənnindən keçdiyimiz dərsləri oxuyandan sonra onun qısa xülasəsi haqqında dəftərimizə yazırdıq. Ümumilikdə isə bütün fənlər üçün dəftər ayırırdıq və o dəftərlərdə tapşırıqları yazırdıq. Yeri gələndə bir neçə səhifəlik tapşırıq yazırdıq ki, bu da xəttimizin daha da təkmilləşməsinə, qorunması şərait yaradırdı.

İnşa yazılar, imla, ifadə işləri isə o qədər tez-tez yazılırdı ki, xəttimizin gündən-günə daha da səliqəli olmasına, gözəl görünməsinə şahid olurduq. Və bundan zövq alıb daha çox yazmaq istəyirdik. Beləliklə də xəttimiz "yaşayırdı". Eləcə də əlyazma deyilən bir yazı növünün varlığından söhbət gedə bilirdi.

İndiki təhsil metodu isə yazı yazmağı o dərəcədə azaldıb ki, uşaqların yazı yazmaq qabiliyyəti sadəcə ibtidai siniflərdə qalıb. Müasir məktəblərimizdə nə əvvəlki kimi tapşırıq yerinə yetirilir, nə də əvvəlki qədər inşa, imla, ifadə yazılır. Bu səbəbdən də yeni bir nəsil yetişir: hüsnxətsiz nəsil...

## Bəs ali təhsil müəssisələrində necə?

Orta məktəbdə artıq yadırğadığımız yazı yazmaq vərdişi ali məktəblərdə demək olar ki, tamamilə yoxa çıxır. Yadımdadır, bizim dövrümüzdə universitetdə nə qədər mühazirələr yazırdıq. Dəftərlərimizin sayı-hesabı yox idi. Yəni yazmağa da məcbur idik. Çünki sonra oxumaq üçün lazımi mənbə tapa bilmirdik. Hətta diplom işimiz də əlyazma şəklində qəbul olunurdu. Müasir dövrdə bəzi ali təhsil ocaqlarında heç diplom müdafiəsi də yoxdur. Harda qala ki, onu əlyazma şəklində tələb edələr.

Dünya müasirləşdikcə, həyatımızı kompüter, smartfon telefonlar satın aldıqca əlyazmalar da yoxa çıxır. Mühazirələr də telefonlara yazılır. Tapşırıqlar da kompüterdə yazılıb, çap olunur. Beləliklə oturub əziyyət çəkməyə, qələmlə mübarizə aparıb saatlarla üzüqoylu yazmağa ehtiyac qalmır. Bizim əvəzimizdən texnologiya yazır. Biz isə yazmaq mədəniyyətindən məhrum oluruq. Bir də baxırıq ki, üstündən uzun illər keçib, bir vərəq yazı belə yazmamışıq. Nəticədə isə nəinki xəttimiz pozulur, yaza bilmirik, üstəlik hərfləri də unudur, sözləri düzgün yaza bilmir, bir sözlə, yazı mədəniyyətindən çox uşaqlaşmış oluruq.

## Sosial şəbəkə yazışmaları yazı mədəniyyətimizin göstəricisidir

Bizi gələcəkdə hüsnxətsiz insanlarla dolu bir həyat gözləyir. Çünki hazırda gənclərimizin əksəriyyəti yazı yazmaqdan çox uzaqdırlar. Bəzən qarşılaşdığımız əlyazma nümunələri onların yazmaqda nə qədər çətinlik çəkdiklərini, eləcə də savadsızlıqlarını ortaya qoyur. Məsələn, bir neçə il bundan əvvəl çalışdığım sahədə insanlardan gələn çoxlu



məktubla tanış olurdum, ərizələrə baxırdım. O qədər savadsız yazılarla qarşılaşırdım ki, "İlahi, insanlar bu savadla hara gedirlər",- deyə düşünürdüm. Çox təəssüf ki, yazı qabiliyyəti, savadı yoxa çıxanlar arasında gənclər xüsusi yer alır. Onların işə qəbulla bağlı ərizələrini oxuduqca və yaxud hansısa problemlə əlaqədar məktubları ilə tanış olduqca (onların əksəriyyətinin ali təhsilli idilər), təəssüf hissi yaşayırdım. Düşünürdüm ki, bu gənclər sabah hansısa bir idarə, müəssisə, təşkilatda çalışacaq, hətta onun rəhbəri belə




olacaqlar. Bəs bu savadla necə idarə edəcəklər.

Bu gün isə əksər gənclərin sosial şəbəkələrdə yazışmaları adamı dəhşətə gətirir. İllərlə bir vərəq yazı yazmayan bu insanlar artıq necə gəldi yazmağa başlayıblar. Yersiz ixtisarlar, qısaldılıb məhv edilən sözlər, mübtədası, xəbəri bilinməyən cümlələrə nəzər saldıqda, inanın, heç nə anlamaq olmur. Bütün bunlar isə yazı yazmaqdan illərlə kənarda qalmağın nəticələridir. Əvvəllər orta məktəbi bitirənədək o qədər yazı yazırdıq ki, məktəbi bitirən gənclər ali təhsil aldı, almadı, hamısı mükəmməl yazmaq qabiliyyətinə malik olurdu.

Fakta söykənən bir nümunə: Bizim "Whatsapp"da bir qrupumuz var. Orta məktəb sinfimizin qızlarının qrupudur. Bu qrupda ali təhsil alanlar da var, orta ixtisas təhsili alanlar da, hətta təhsilini davam etdirməyən evdar qadınlar da var. Lakin yazışmalar kənardan oxuyan heç cür ayırd edə bilməz ki, qızlardan hansı ali təhsilli, hansı təhsilsizdir. Çünki yazışmalarda hər kəs yazı yazmaq qaydalarına o qədər düzgün riayət edir. Bu səbəbdən də kimin təhsilli, kimin təhsilsiz olduğu seçilmir. Bəs səbəb nədir? Səbəb keyfiyyətli təhsilin nəticəsidir. Səbəb bəyənmədiyimiz təhsil sistemini kənara tullayıb yenisini tətbiq etdiyimiz bugünkü təhsil sistemindən fərqli nəticənin ortada olmasıdır.

## Qrafalogiya elmi məhvə doğru...

İnsanın xətti ilə xarakteri arasındakı əlaqəni qrafalogiya adlı elm öyrənir. Bu elm insanın xəttinə görə onun ağlını, iradəsini, emosionallığını və sair kimi keyfiyyətləri qiymətləndirməyə imkan verir. Məsələn, əl yazısını sağa doğru əymək insanın ünsiyyət qabiliyyətinin göstəricisidir. Bu cür insanlar daha dostcanlı və məsuliyyətli olurlar. Yazı sağa doğru əyildikcə insanın qərarları duyğularının təsirinə düşür. Əl yazısının ümumiyyətlə, düz olması insanın müstəqilliyinə dəlalət edir. Sola doğru əyilən əl yazısı, romantikliyi və ehtiyatlı olmağı göstərir. Bu əl yazısının sahibi əvvəlcə hər məlumatı təsdiqləyir. Başqalarının onu hər hansı bir söz verməyə məcbur etməsindən isə xoşu gəlmir.

Böyük əl yazısıyla yazan şəxslər daha çox dostluğu xoşlayırlar. Kiçik əl yazısı məntiqli düşünməyin göstəricisidir. Kobud yazan şəxslər verdikləri sözü yerinə yetirməkdə həmişə tərəddüdə olurlar. Həyatda baş verən hər bir hadisəni ciddi qəbul edirlər. Çox kobud yazı isə şəxsin gərginliyindən xəbər verir. Onu tənqid edənlərə qarşı çox qəzəblidir. Çox incə yazılar isə mühitə və insanlara olan həssaslığı təmsil edir. Mənbələrdə göstərilir ki, yazı xəttinin ölçüsü insanın ünsiyyətcillik səviyyəsini müəyyən edir. Belə ki, iri xətt sahibləri daha ünsiyyətcil və istiqanlı olurlar. Xırda xətt isə insanın özünə qapalılığı və gizliliyi haqqında xəbər verir. Yumru yazı xəttinə malik insanlar isə mehriban və nəzakətli olurlar.



Yazı yazarkən qələmə təzyiq göstərərək az qala dəftəri yaran adamlar iradəli və güclü olurlar. Əksinə olaraq yazıda qələmə güc verməyib, əlini rahat buraxan insanlar bir qədər arxayın və səbirli insanlardır.

Kalliqrafik xətt insanı səliqəli və məsuliyyətli insan kimi xarakterizə edir. Anlaşılmaz xətt sahibinin enerjili, qayğısız və bir qədər əsəbiliyindən xəbər verir. Bitişik xətt (bütüm həriflər bir-birinə qaydasında) insanın məntiqli düşüncəyə



sahib olduğunu izah edir. Yox, əgər həriflər bir-birindən aralıdırsa, bu, insanın güclü intuisiyaya sahib olduğu anlamına gəlir.

Optimist insanlarda sətirlər başlanğıcdan sona doğru yüksəlir. Pessimistlərdə isə əksinə olaraq aşağı enir. Düz sətirlər realistləri xarakterizə edir, hansı ki bu insanlar həmişə sakit olur və hər şeyə təfəkkürlə yanaşır.

Yaxşı, səhərdən bəri sadaladığımız bu yazı xətlərinə harada rast gələnə bilər ki, kimlərinsə xasiyyəti də müəyyən edilə? İndi bir-iki sənəddən başqa, əlyazısı demək olar ki, yoxdur. İnsanlar uzun illər yazmadıqlarına görə xətləri də itib-batıb. Məsələn, otuz-qırx adam yazı yazmağa cəlb olunarsa, onların hər birinin xətti uzun illər yazmadıqlarına görə yalnız anlaşılmaz təsir bağışlayacaqdır. Beləliklə də qrafologiya adlı elm də məhvə doğru getməkdədir. Hansı ki, bu elm insan xarakterinin öyrənilməsində böyük əhəmiyyət kəsb edib. İnsanlar var, yazı, xətt yoxdur, deməli, şəxləri xətlərlə öyrənən elm də yoxdur.

Bir neçə il sonra isə bütün bunların acı nəticələri ilə daha çox rastlaşacağıq. Çünki hələlik orta yaş qrupundan olan insanların yazmaq bacarığı, xətti var. Lakin qarşıda bizi hüsnxətsiz bir gələcək gözləyir.

***Mətanət Məmmədova***

SİYASİ RAKURS+FOTOFAKT

# Tehran Bakıya terror mesajları yollayırsa...

## Yaxud, baş verənləri ayrı cür şərh etmək də olmur!





...yaşamışıq. Fazil bəyin başına gələn hadisədən istifadə edib, öz məsələm barəsində danışmaq istəməzdim. Şükür ki, Fazil Mustafanın səhhəti yaxşıdır. Ailəmlə birlikdə hamımız hədsiz həyəcan keçirmişik. Tədbirlə bağlı rayona getmişdim, təcili qayıtdım. Amma Fazil bəylə görüşmək mümkün deyil. Allahın izni ilə sağalıb, xəstəxanadan çıxacaq. Fazil bəyin prinsipial, savadlı insan olması bizim üçün məğrurluq mənbəyidir. Narahat olmasın, hamımız Fazil bəyin yanındayıq, onu müdafiə edirik. İnsanlar da bilsinlər ki, siyasi dünya görüşünə, nifrətə görə belə qanundankənar hərəkətlər edilməsi yolverilməzdir və dövlətimiz bunun cəzasını mütləq verəcək".

pravda.az
Tahir Kərimli: "İsmayıllıya gedəndə, demək olar, evdən çölə çıxmıram, deputatlara silah verilməsi vacibdir..."

İstatistikleri gör
Bir Gönderiyi Öne Çıkar
Beğen Yorum Yap Paylaş
6
En yeniler
Cəbhə Azadi an Şirvan · Takip Et
Növbəti hədəf sənsən ay əclaf. Ehtiyatlı ol !!
15d Beğen Yanıtla









Azərbaycan Respublikasının Tehrandakı səfirliyi terror hücumuna məruz qaldıqdan sonra İran hakimiyyəti buraxdığı boşluqları, səhvləri nəzərdən keçirərək yaranmış soyuq münasibətləri aradan qaldırması yerinə vəziyyətin daha da gərginləşməsi yönündə sanki canfəşanlıq göstərir. Daha əvvəllər Azərbaycanla quru sərhədlərdə təxribat xarakterli hərbi təlimlərin keçirilməsi, hava sərhədlərimizi pozmaq cəhdləri sonradan daha aqressiv tonlara istiqamət almağa başladı. Bu gün İranın parlamentində, digər rəsmi dövlət və qanunvericilik qurumlarında oturan baş mollalar əllərinə düşən hər imkanlarında aqressiya ritorikalı fikirləri ilə közərən alovun üzərinə benzin tökməklə məşğuldurlar.

### Hədəfdə deputatlardır - Fazil Mustafanın silahlı terror hücumuna məruz qalmasının ardınca Tahir Kərimliyə təhdid mesajının verilməsi

Əlbəttə, bu kimi əməllərin cavabsız qalmayacağını da gözəl anlayan Tehran rejimi digər tərəfdən Azərbaycan vətəndaşlarını da hədəfə alırlar - terror və s. cinayətkarlıq vasitələri ilə. Əvvəlcə millət vəkili Fazil Mustafanın öz evinin qarşısında silahlı hücuma məruz qalaraq yaralanması, ardınca daha bir millət vəkili Tahir Kərimlinin sosial şəbəkə hesabında "növbəti hədəf sənsən" tipli təhdid statusunun yazılması, bunun ardınca isə İrana bağlı terror qruplaşmalarının ölkədə fəaliyyət göstərən jurnalistlərin sosial media hesablarına anonim xarakterli təhdidlər yağdırması şovinizmə bağlı rejimin, eləcə də ona bağlı qruplaşmaların dinc dayanmaq istəməməsi ilə əlaqələndirilə bilinər.

### Bu dəfə növbə Təbriz şəhərindəki konsulluğumuza çatır - Hizbullah və Hüseyniyyun bir arada!

Baş verənlər fonunda İrandakı hakimiyyət bütün bunların qarşısını qəsdən almadığını nümayiş etdirir. Əksinə, sifarişlərin də bu rejim tərəfindən verildiyi artıq heç bir şübhə doğurmur. Məsələn, sual edə bilərik ki, necə olur, Tehrandakı səfirliyimizə qanlı terror cinayətinin araşdırılması, istintaqının aparılması yerinə bu dəfə növbə Təbriz şəhərindəki konsulluğumuza çatır və bu diplomatik nümayəndəliyimiz də təhdidlərə uğrayır?

Belə ki, ötən gün konsulluğumuz qarşısında Livanın İrana bağlı olan və birbaşa Tehrandan idarə edilən Hizbullah terror qruplaşmasının və Hüseyniyyun bayraqlarının qaldırılması, aksiyanın keçirilməsi yuxarıda qeyd edilən faktları isbatlayır. Yeri gəlmişkən, bu həmin Hizbullahdır ki, Livanda Azərbaycan səfirliyinə qarşı edilən rüsvayçı erməni hücumuna dəstək göstərmişdi.

Və bu gün Hizbullahın əsasən xain azərbaycanlılardan ibarət Hüseyniyyun qruplaşması ilə təxribat törətmək cəhdləri də diqqətlərdən yayınmır. Onların son vaxtlar Azərbaycanda ələ keçirilən casusların azadlığa buraxılmaları tələbləri ilə birgə çıxış etmələri də hər halda nəzərdə saxlanılır...

Beləliklə, İranın öz daxilində Azərbaycan konsulluğuna qarşı təxribatçı əməllərin törədilməsi sanki Tehran terrorunun davamı kimi göstərilməyə çalışılır. Daha dəqiq desək, səfirliyimizə edilən hücumun sabah-birigün konsulluğumuza qarşı reallaşdırılması siqnalları verilməkdədir. Hər halda, İranın Azərbaycana qarşı davranışları artıq kifayət qədər qənaətə gəlməyə zəmin yaradır ki, bu ölkə regionumuza ciddi təhlükələr verə biləcək terror siyasəti yürüdür və dünyanın qlobal terrorçuluğa qarşı mübarizəsi fonunda növbə çox yaxın zamanlarda İranın özündə də çatacaq.

Artıq Suriyada, Yəməndə İrana bağlı digər terror qruplaşmalarının, habelə Tehran rejiminə məxsus hərbi-strateji obyektlərin hədəfə alınaraq məhv edilmələri də bu kontekstdəndir.

**Rövşən RƏSULOV**



Elçin Bayramlı

## Qorxunc nağıllar

*Uşaqlarımızı əxlaqsız nağıllarla psixotron terrora kimlər məruz qoyur?*

***Son dövrlərdə Azərbaycanda mədəniyyət, ədəbiyyat, kino sahəsində milli-mənəvi dəyərlərimizə qarşı terror aparan qüvvələr peyda olub. Əxlaqsızlığı təbliğ edən çoxsaylı məqalələr, hekayələr, romanlar, kitablar dərc olunur, filmlər, kliplər, verilişlər çəkilir. Bunlardan ən dəhşətlisi uşaqlara yönəlmiş psixotron terrordur. Belə ki, son illərdə bu naməlum qüvvələr nağıllara girişib. Özlərindən çox sayda murdar, rəzil, əxlaqsız nağıllar uydurub Azərbaycan nağılları adı ilə kitablara dürtüblər. Hələ bir neçə il əvvəl rüsvayçı uydurmalarla doldurulmuş "Azərbaycan nağılları" 5 cildliyi dərc olunanda buna sərt etiraz etmiş və müəlliflərin və tərtibatçıların cəzalandırılmasını tələb etmişdik. Lakin heç kim cəzalanmadı.***

5 cildliyə daxil olan "Göy mıncıx", "Yetim qız", "Şəmsi Qəmər", "Bəxtiyar", "Quş dili bilən İskəndər" və sair nağıllarda nələr təbliğ olunur, uzun danışmaq istəmirəm, qısaca siyahını yazım;

1. Sadizm
2. Mozaxizm
3. Qətl
4. İşgəncə
5. Pornoqrafiya
6. Zorlama
7. İnsest
8. Quldurluq
9. Hiyləgərlik
10. Yalançılıq

Yeni quraşdırılmış və qədim nağılllar kimi ortaya dürtülən bu müasir nağılları böyüklər oxuyanda psixologiyası pozulur, o da qalsın uşaqlar. Belə nağılları uydurub kitablara, dərsliklərə salanlar aşkar olunub sərt cəzalandırılmalıdır.

Qənaətimə görə, 20 ildən çoxdur ki, bu işlə məşğul olan mütəşəkkil dəstə var. Onlar xalqın mifologiyasına, folkloruna və ədəbiyyatına zərrə qədər aid olmayan şeyləri bu kitablara doldururlar. Belə uydurma pozğun nağılların yazılması və uşaqlara danışılması rəzillik və biabırçılıqdır.

Bunlar qarşılarına belə bir plan qoyublar ki, uşaqlardan başlayaraq Azərbaycan xalqına mənəvi terror etsinlər. Allen Dallesin məşhur "Məhvetmə" planında bu prosesin detalları dəqiqliyi ilə verilib. Belə nağıllarla murdar və rəzil şəkildə övladlarımızın psixologiyasını pozurlar.

Əslində, bunu araşdırmaq mənim işim deyil, bununla hüquq-mühafizə orqanları məşğul olmalıdır. Güman edirəm ki, onlar Ermənistandan maliyyələşdirilir. Ya da hansısa xarici xüsusi xidmət orqanlarının Azərbaycandakı təbliğatçı agentləridir.

Ona görə də təhlükəsizlik və hüquq-mühafizə orqanları bu adamları tapıb cəzalandırmalıdır. Çünki açıq şəkildə xalqımız təhqir olunur, mənəvi terror aparılır.

Maraqlıdır, xalqımızın zəngin folkloru, o cümlədən zəngin nağıl bazası olduğu halda bu adamlar hansı məntiqlə bizə, ümumiyyətlə insanlığa heç bir aidiyyatı olmayan uydurduqları əxlaqsız nağılları bütün kitablara salırlar? Bəs müvafiq orqanlar hara baxır?

Məsələ təkcə nağıllarla da bağlı deyil, xarici ölkələrin istehsalı olan bir çox müasir cizgi filmləri də uşaq psixologiyasına ağır zərbə vurur ki, bu da tamam başqa yazının mövzusudur. Ümid edək ki, tezliklə bu terrora son qoyulacaq. Hələlik isə, uşaqlarınızı əksər müasir multfilmlərdən, son dövrlərdə dərc olunmuş nağıllardan aralı saxlayın. Çalışın onlara keçən əsrdə çəkilən tərbiyəvi multfilmləri və nağılları verəsiniz. Əks halda, bu uşaqların psixotron terrora məruz qalaraq gələcəkdə cinayətkara, əxlaqsız məxluqa çevrilməsi ehtimalı son dərəcə böyükdür.

# Aleksandr Razuvayev:
## "Heç kim Bakıya şərt diktə edə bilməz"



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*



Aprelin 4-də Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 31 illiyi tamam oldu. Bu gün analoji tarix Rusiya və Ermənistan tərəfindən də qeyd olunur. Hər iki dövlət Rusiyanın müttəfiqi və strateji tərəfdaşıdır. Bu günlərdə prezident Putin tərəfindən təsdiq edilmiş Rusiyanın yeni Xarici Siyasət Konsepsiyasında qeyd olunduğu kimi, Rusiya Federasiyası yaxın xaricdəki dost dövlətlərlə əlaqələrin inkişafına bundan sonra da xüsusi diqqət yetirmək niyyətindədir. Bununla belə, Azərbaycan və Ermənistanın öz müttəfiqinə Moskvaya yanaşma tərzi kökündən fərqlidir- politoloq Aleksandr Razuvayev belə hesab edir. Rusiya ilə Qərb arasında qlobal qarşıdurma fonunda kimin əsl konstruktiv tərəfdaş adlandırıla biləcəyi, kiminlə irəli gedilə biləcəyi və kiminlə bağlı problemlərin ortaya çıxması daha aydın görünür. Politoloq "Moskva-Baku" portalına şərhində bu məqamları analiz edib. Ekspertin şərhini oxucularımıza təqdim edirik.

- Rusiya ilə Qərb arasında qlobal münaqişə fonunda dövlətlər müəyyən dərəcədə hansı tərəfdə olduqlarını seçməli olurlar. Xatırlayırıq ki, ötən ilin əvvəlində Ukrayna ətrafında yaranmış vəziyyət Azərbaycan liderinin fikrini dəyişməsinə deyil, gələcəyə strateji baxışın bütün məntiqi ilə baxmasına və Vladimir Putinlə Müttəfiqlik Əməkdaşlığı haqqında Bəyannaməni imzalamasına səbəb oldu. Bu addım iki dövlətin liderlərinin ikitərəfli əməkdaşlığın perspektivlərini necə görmələri, köklü şəkildə dəyişən dünyada bu münasibətləri necə görmələri baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Daha sonra Azərbaycan Prezidenti jurnalistlərin müvafiq sualına "fikrinizi dəyişmək istəməyəcəksiniz ki?" sualına mənfi cavab verdi və bəyan etdi ki, Bəyannamə çoxdan hazırlanıb və bu, gələcək üçün strateji qərardır. Axı, nəticədə indiki vəziyyət nə vaxtsa bitəcək.

Rusiya və Azərbaycan prezidentlərinin çox yaxşı münasibətləri var ki, bu da dövlətlər arasında qarşılıqlı əlaqə vektorunu müəyyən edir. Onlar öz xalqlarının, ölkələrinin əsl liderləridir, çox güclü və hörmətlidirlər. Yeri gəlmişkən, təcrübənin göstərdiyi kimi, iki lider güclüdürsə, onların dostluq münasibətləri inkişaf etdirmə ehtimalı daha yüksəkdir. Bunun təsdiqi Vladimir Putinlə İlham Əliyev arasındakı münasibətdir. Rusiya-Azərbaycan münasibətləri ümumilikdə müsbətdir, həlli mümkün olmayan elə bir mürəkkəb məsələ yoxdur.

Baxın, Türkiyə ilə də belədir. Burada biz həm də qarşılıqlı əlaqəni, ən çətin sahələrdə kompromis və qarşılıqlı fayda tapmaq bacarığını görürük. Axı Rusiya və Türkiyə son illərdə çox çətin anlar yaşadı, amma biz hər şeyi yoluna qoyduq. İndi isə hazırkı beynəlxalq vəziyyət fonunda Ankara ilə xüsusi münasibətlərimizin olduğunu deyə bilərik. Rusiya Şərqə dönüş edir. Niyə? Axı türk komponenti Rusiyada tarixən güclüdür. Mən çoxdan deyirəm ki, Rusiya Federasiyası Türk Dövlətləri Təşkilatına daxil olmalıdır.

Ermənistan Rusiyanın AİI və KTMT-də çoxdankı müttəfiqidir, lakin bunun praktikaya ciddi təsir etdiyi bir anı xatırlamıram. Yeri gəlmişkən, xatırlatmaq istərdim ki, ötən ilin aprelində (burada Putin və Əliyev arasında Bəyannamənin imzalanması ilə bənzətmə aparmaq olar) Rusiya prezidenti və Ermənistanın baş naziri Nikol Paşinyanın nə az, nə çox, 30 bənddən ibarət olan Moskva ilə İrəvan arasında münasibətləri möhkəmləndirmək və Moskva üçün mövcud olan qırmızı xətləri hansısa formada düzəltmək məqsədi daşıyan birgə bəyanat imzaladı. Xüsusən də, Ermənistan ərazisindəki bədnam Amerika bioloji laboratoriyalarının fəaliyyətinə aid olan xətlər və prinsipcə Qərb tərəfdaşları ilə münasibətlər.

Amma biz görürük ki, heç bir bəyanat İrəvanı ayağa qaldırmadı. O, getdikcə Aİ ilə yaxınlaşmağa doğru irəliləyir. O, Moskvanın tənqidlərinə baxmayaraq, öz ərazisində Aİ missiyasına ev sahibliyi edir. Qəfildən Beynəlxalq Cinayət Məhkəməsi (BCM) Rusiya liderinin müəyyən həbsinə order verəndə, qəfildən Ermənistan Konstitusiya Məhkəməsi BCM-nin Roma Statutunda təsbit olunmuş öhdəlikləri tanıyır. Rusiya sülhməramlılarının, KTMT-nin daimi tənqidi ilə məşğuldur. Müttəfiq üçün bunlar qəribə yanaşmadır.

Ermənistan 2020-ci ilin noyabrında Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladığı üçtərəfli bəyanatı 2 ildən artıqdır ki, yerinə yetirmir. Hansı ki, bu da Rusiyanın maraqlarına uyğun deyil. Axı xüsusən indiki şəraitdə bizim üçün vacibdir ki, Cənubi Qafqaz sülh və sabitlik regionu olmalıdır ki, orada bu regional təhlükəsizliyi pozacaq heç bir "yad", qeyri-regional ünsürlər olmasın.

Ermənistanın etdiyi hər şey daha çox geriyə getmək cəhdinə bənzəyir, bu isə sərfəli deyil. Lakin Rusiya üçün regionda nəqliyyat və logistika layihələrinin işə salınması vacibdir. Ermənistan üçtərəfli bəyanatı yerinə yetirmək üçün getdikcə daha çox sövdələşməyə çalışır. İrəvan hesab edir ki, hələ nəyisə dəyişmək mümkündür. Amma bu cəhdlər yenə də regionda qüvvələr balansını dəyişməyəcək.

Hətta Primakov Ermənistan tərəfini Azərbaycanla münasibətləri normallaşdırmağa çağırıb, çünki vaxt İrəvanın əleyhinə işləyir və bu, gələcəkdə daha da pisləşəcək. Amma Ermənistan heç nəyi normallaşdırmaq istəmir. Əksinə, "yeni ərazilər uğrunda yeni müharibə", "Qarabağ Ermənistandır, nöqtə" çağırışları səslənirdi. Nəticədə "paylarını" aldılar.

Məsuliyyətli ölkə öz sərhədlərində həmişə sülh və əmin-amanlıq istəyir. Rusiya Qafqazda sülhün olmasında maraqlıdır. Əslində, İrəvanın istəkləri istisna olmaqla, regionda yeni münaqişənin yaranması üçün heç bir ilkin şərt yoxdur. Düşünürəm ki, Moskva ilə Bakı arasında bağlanmış müqavilələr çərçivəsində Rusiyanın Qarabağdakı sülhməramlı missiyasının 5 illik mandatı başa çatanadək və sülhməramlılar gedənədək Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması məsələsi öz həllini tapacaq.

Rusiya ilə Azərbaycan və Rusiya ilə Ermənistan arasında diplomatik münasibətlərin qurulmasının növbəti ildönümləri ilə bağlı hansı nəticələr çıxarmaq olar. Əlbəttə, Moskva Cənubi Qafqazın bütün dövlətləri ilə, bütövlükdə MDB ilə dostluğa, qarşılıqlı anlaşmaya və tərəflərin hər birinin milli maraqlarını dərk etməyə əsaslanan konstruktiv münasibətlər qurmaq istərdi. Buna baxmayaraq, Ermənistan yenidən özünü kompleks, qeyri-şəffaf, gözlənilməz tərəfdaş kimi göstərir.

Azərbaycan suveren dövlət kimi öz sözlərinə, verdiyi qərarlara görə cavabdehdir. Heç kim Bakıya şərt diktə edə bilməz. Çoxları, xüsusən də Qərb, müstəqil dövlətləri sevmir.

Prinsipcə, Ermənistanın bu gün bir ölkə kimi nə qədər uzağa getdiyini söyləmək çətindir... O, sözün əsl mənasında, hamıdan-Moskvadan, Qərbdən, erməni diasporasından asılıdır. İndi biz ABŞ-ın Ermənistanı bir daha qondarma Demokratiya Sammitinə necə dəvət etdiyinin şahidi olduq. Göründüyü kimi, Ermənistan Qərb dünyasının bir hissəsinə çevrilməyə can atır. İrəvan səmimi şəkildə inanır ki, NATO, ABŞ, Avropa Qarabağın Ermənistanın tərkibində qalması üçün onlara kömək edəcək. Əslində bunların hamısı illüziyadır. Heç kim onlar üçün döyüşməyəcək.

Ermənistan kasıb ölkədir. Onun büdcə ilə problemləri var, büdcə isə ordu deməkdir. İqtisadiyyatı zəif olan dövlət xüsusi heç nə edə bilməz, çünki zəifdir. O, inkişafa doğru getmək istəmir. Tarixən qonşularına daimi iddiaları ilə seçilib. Normal, məsuliyyətli ölkələrdə hakimiyyət ən azı əhalinin firavan həyat problemini necə həll edəcəyini düşünür. Biz Ermənistanda belə bir şey görmürük, ambisiyaları, iddiaları görürük. Və dünya dəyişir. Ermənistan bu dünyada müəyyən yer tuta bilər.

Ermənistanın indiki hakimiyyətinin problemi ondan ibarətdir ki, Nikol Paşinyan ancaq hakimiyyətdə necə qalmaq və bunun üçün kiməsə xoş gəlmək haqqında düşünür, eyni zamanda ölkə qarşısında məsuliyyət hiss etmir.

Paşinyanın dövründə bu, ilkin olaraq - qərbyönlü mövqelərini göstərmək istəyi, Rusiyaya qarşı iynələr idi. Həmin proses KTMT-nin hazırkı baş katibinin saxlanması ilə başlayıb və bir sıra başqa təxribat xarakterli hərəkətlərlə davam edir. İrəvan Qərbə getmək istəyir, amma Rusiyadan qopmağa imkanı yoxdur. Bundan əlavə, İrəvan hesab edir ki, Moskva İkinci Qarabağ müharibəsində onlara kömək etməyib, müharibədən sonra problemlərini həll etməyə başlamayıb. Eyni zamanda, Ermənistan hakimiyyəti Rusiyanın dəstəyindən məhrum olmaqdan çox qorxur. Ermənistan öz qorxusu ilə yaşayır. Amma bəlkə də, rasional düşünməyin, qonşularla münasibətlərdə konstruktiv yanaşmaya keçməyin vaxtı çatıb. Amma belə etmirlər, əksinə brlə deyirlər- biz istəyirik ki, hamı bizim problemlərimizi həll etsin- Rusiya həll etsin, Qərb həll etsin. Əgər qərar verməsələr, deməli, özləri pisdirlər.

Belə siyasət nə Moskvada, nə də Brüsseldə nə inam, nə də hörmət yaradır. Aydındır ki, həm Rusiyada, həm də Qərbdə erməni lobbisi var. Amma bütün erməni problemlərini həll edəcək qədər güclü deyil.

Təbii ki, Moskva İrəvanın hərəkətindən qıcıqlanır. Rusiyanın rəsmi müttəfiqi statusunda olması Ermənistanın addımlarını daha da ağırlaşdırır. Müttəfiqlər özlərini belə aparmırlar. İrəvan istədiyini edən kaprizli uşaq kimidir. Belə bir ittifaqdan nə qazanc əldə etdiyimiz obyektiv olaraq anlaşılmazdır.

Ermənistana qəti şəkildə başa salmaq lazımdır ki, müttəfiqlər özlərini belə aparmırlar. Və buna paralel olaraq, ən yaxşı cavab hazırda strateji əhəmiyyət kəsb edən layihələri, xüsusilə Şimal-Cənub nəqliyyat dəhlizini inkişaf etdirdiyimiz Azərbaycanla münasibətlərin ardıcıl dərinləşməsidir. Ermənistan da bu layihədə iştirak edir, lakin hazırda passivdir.

Ermənistan həm Rusiya, həm də bütövlükdə Qafqaz üçün əhəmiyyətini həddən artıq çox qiymətləndirir. Ermənistan olmasa, AİI və KTMT çox itki verməyəcək. Buna görə də, onunla daha sərt olmaq lazımdır: əgər belə davranırsansa, bəlkə bu strukturlarda sənə ehtiyac yoxdur?

İrəvanın Rusiyaya davamlı hücumlarına həssas cavab verilməlidir. Müxtəlif iqtisadi tədbirlər mümkündür. Həmişə bir yol tapmaq mümkündür.

***Tərcümə - Elçin Bayramlı***

## Bu futbolçu hər il PSJ-dən 60 milyon avro bonus qazanır




PSJ-nin hücumçusu Kilian Mbappe hər mövsüm klubdan əlavə loyallıq bonusu alır. Qol.az xəbər verir ki, bu barədə "L`Equipe" məlumat yayıb. Paris təmsilçisi hər mövsüm 24 yaşlı forvarda 60 milyon avro bonus ödəyir.

Bundan əvvəl Mbappenin gələn mövsümün sonunda azad agent kimi "Real"a keçə biləcəyi qeyd olunurdu. Bir il əvvəl imzalanmış müqaviləyə əsasən, Mbappe 2023-cü ilin yayında müqaviləni uzatma variantını aktivləşdirməsə, 2024-cü ildə PSJ-dən ayrıla bilər.

Qeyd edək ki, Mbappe 2017-ci ildən SJ-də oynayır.

# Uşaqlıq travması nədir?



"Uşaqlıq travması azyaşlı dövründə yaşanan, dərin iz buraxmış acı, kədərli və sonralar zaman-zaman xatırlanan epizodlardır. Bu narahatedici epizodlar fiziki, cinsi, emosional zorakılıq, eyni zamanda fiziki və ya emosional hadisələr ola bilər". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Leyla Əli deyib.

Onun sözlərinə görə, sevilən bir insanın itkisi, tərk edilmə kimi travmatik hadisələr, qorxuya səbəb ola biləcək hər hansı bir həyat hadisəsi (qəzalar, fəlakətlər, müharisələr və s.) bu sırada yer alır. Fiziki zorakılıq uşağın inkişafı dövründə yaşandıqda yetkinlik dövründə həyatın demək olar ki, hər bir sahəsinə təsir göstərir.

Onu da unutmaq olmaz ki, hər bir insan həyatı müxtəlif şəkildə yaşayır. Bu baxımdan hansı həyat hadisəsinin kimə hansı travmanı yaşatdığını bilmək olmaz. Sizin üçün travmatik olmayan bir şey başqası üçün ciddi fəsadla nəticələnə bilər və güclü təsir edər. Burada önəmli olan insanın hadisələri necə qəbul etməsi və yaşananları necə hiss etməsidir.

Psixoloq sözlərinə belə davam edib: "Uşaqlıq travmaları insanların düşündüyü kimi az rast gələnən durum deyil və bu travmalar onların həyat tərzinə fərqli şəkildə təsir edir."

Uşaqlıq illərində yaşanan travmaların azyaşlılar böyüdükdən sonra onların həyatında buraxdığı izləri aydın şəkildə görə bilirik. Yaşadığımız travmalardan asılı olaraq ətrafdakı insanlara qarşı güvənsizlik, sevgi və səmimiyyətə inamsızlıq ilkin simptomlar şəklində üzə çıxır. Bu qəbildən olan insanlar sağlam münasibət qura bilmir, bəziləri isə onlara zərər verən münasibətdən uzaqlaşa bilmir.

Ancaq bütün bunlar aradan qaldırıla bilən vəziyyətlərdir. Xüsusilə dəfələrlə yaşadığımız münasibətlərdəki problemlərin əksəriyyətinin şəxsi seçim olmadığını anlamaq çox önəmlidir. Uşaqlıqda mənimsənilən bəzi mübarizə strategiyaları böyüklərdən fərqli olaraq uşaqlarda güclü fərd yaratmaya bilər və onları zəiflədə bilər. Uşaqların hansı travmaya məruz qalmasından asılı olmayaraq, onlar sevgiyə və sağlam münasibətlərə layiqdir. Bunu dərk etdikdə sağlam psixologiyaya sahib olan fərd yaratmaq üçün atılan addımda bütün maneələr aradan qaldırıla bilər. Önəmli olan qeyri-sağlam davranışları və bağlanma tərzlərini sağlam davranışla əvəz edə bilməkdir. Sadəcə doğru əllərdə, uyğun zamanda və strategiyada olmalısınız.

*Ayşən Vəli*

## Bir gündə yol qəzalarında 3 nəfər ölüb

**Ötən gün respublika ərazisində ölümlə nəticələnən 3 yol-nəqliyyat hadisəsi baş verib. SİA xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, yol qəzalarında 3 nəfər ölüb.**



## Kərim Benzema ilkə imza atıb




**Futbol üzrə İspaniya La Liqasının XXVII turunun "Valyadolid"lə matçı "Real Madrid"in hücumçusu Kərim Benzema üçün əlamətdar olub. SİA xəbər verir ki, futbolçu 6:0 hesabı ilə qalib gəldikləri matçda het-trikə imza atıb. O, 29-cu, 32-ci və 36-cı dəqiqələrdə fərqlənməklə karyerasında ilkə imza atıb. Belə ki, təcrübəli futbolçu ilk dəfə hansısa matçın birinci hissəsində 3 qol vurub.**

**Benzema həm də Madrid təmsilçisində ardıcıl 11 mövsümdə azı 20 qol vurmağı bacaran ilk futbolçuya çevrilib.**

## Yuyucu vasitələr xərçəngin inkişafına səbəb ola bilər?

"Yuyucu vasitələr birbaşa xərçəngə səbəb olmur. Amma yuyucu vasitələrin tərkibində olan müəyyən maddələr bədənin immunitetini aşağı sala bilir". Bu sözləri SİA-ya açıqlamasında onkoloq-cərrah İbrahim Əsədli deyib.



Onun sözlərinə görə, bədənin immuniteti aşağı düşdükdə isə xərçəng yarana bilir: "Yəni, kimyasal yuyucu vasitələr uzun müddətdə xroniki stress kimi davam edərsə, xərçəngə səbəb ola bilər".

İbrahim Əsədli sözlərinə belə davam edib: "Xərçəngin əsas səbəbi immunitetin aşağı düşməsidir. O da stresdən baş verir. Xərçəng psixosomatozdur. Əlavə vasitələr isə sadəcə olaraq qıcıqlandırıcı vasitələr kimi təsir edir".

## Xaricdə təhsil almış daha 30 nəfərin diplomu tanınmayıb



Mart ayı üzrə xaricdə təhsil almış və diplomunun tanınması ilə bağlı 516 müraciətçinin 486-sı barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 30 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb. Bu barədə SİA-ya Təhsildə Keyfiyyət Təminatı Agentliyindən xəbər verilib.

Tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 27, təhsil forması səbəbi ilə 2, akkreditasiyasız ali təhsil müəssisəsi üzrə 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Ukraynadan 219, Rusiya Federasiyasından 110, Türkiyə Respublikasından 95, Belarus Respublikasından 25, Gürcüstandan 19, digər ölkələrdən isə 48 müraciətin olduğu müşahidə olunur. Ən çox müraciət olunan ixtisaslara gəlincə, iqtisadiyyat üzrə 74, maliyyə üzrə 67, menecment üzrə 39, hüquqşünaslıq üzrə 35, biznesin idarə edilməsi üzrə 31 müraciətçi qeydə alınıb.

Bildiririk ki, sənədlərə ortalama baxılma müddəti 14 iş günü təşkil edib. Əlavə olaraq bildiririk ki, vətəndaşlar xarici ali təhsil ixtisaslarının tanınması üçün www.tanınma.az keçidinə daxil ola bilərlər.

*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000